Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

21 DEKABR 2019-cu il

№ 228 (4126)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# KASIB-KUSUBUN PULUNU YEYƏN İCRA BAŞÇILARININ DÖVRANI BİTİR...

■ səh. 3 ■



■ səh. 5 ■

## AXC- Müsavat hakimiyyəti dövründə yoxa çıxmış 20-30 milyon dollar neft bonusunun izi ilə...

"Rusiya-Azərbaycan münasibətləri tarixdə ən yüksək səviyyədədir, Rusiyada yaşayan azərbaycanlılar bunu gündəlik həyatlarında hiss edirlər"

■ səh. 2 ■

Kənd təsərrüfatına dövlət dəstəyinin bütün əsas komponentlərinin Azərbaycan modeli - Prezidentin son müşavirəsinə baxış...

■ səh. 11 ■

Pambığın istehsalından hazır məhsula qədər tamamlanmış dövriyyə sistemi - Prezident Azərbaycanın əsas aqrosənaye hədəfini göstərdi...

■ səh. 7 ■

Ermənistanın ABŞ sanksiyaları altına düşmək ehtimalı gedərək reallaşır...

■ səh. 8 ■

Azərbaycan Demokrat Firqəsinə qarşı təxribat - Partiyanın plaketlərə vurulan möhürü saxtadır, yoxsa oğurluqla əldə olunub?!

■ səh. 5 ■

Rusiyanın erməni əsilli ziyalıları məhbus Köçəryanın müdafiəsinə qalxdı

■ səh. 10 ■

Özəl məhkəmə ekspertlərinin fəaliyyəti Ədliyyə Nazirliyi tərəfindən tənzimlənəcək...

■ səh. 12 ■

Hektardan 50 sentner pambıq götürə bilən fermerlərimizin təcrübəsini necə yaymaq olar...

■ səh. 13 ■



Əmlak sığortası məsələsində varlıların və sahibkarların Prezidentin dediklərindən inciməyə haqqı yoxdur...

■ səh. 6 ■



İcra başçılarının talançılığı olmasaydı, ödənişli ictimai işlərin sayını 40 mindən hansı həddə qaldırmaq olardı...

■ səh. 4 ■

BMT Baş Məclisinin Xüsusi komitəsindən Ermənistana «Qarabağ zərbəsi»...

■ səh. 9 ■

■ səh. 3 ■

İcra başçıları fəlakətli karyera sonluğundan yan keçmək istəyirlərsə...



■ səh. 4 ■

Azərbaycanda pullu adamların sosial məsuliyyət(sizlik) problemi...



■ səh. 7 ■

Pambıqçılıqda inkişaf həm də çox ciddi sosial nəticələr doğurur - azı 200 mindən çox adam, hər rayonda 10 min şəxsin iş problemi həll olunur...



■ səh. 13 ■

Hektardan heç 20 sentner də pambıq yığa bilməyən üç rayonumuz - kadr yarıtmazlığı, ya təbii şəraitsizlik...



■ səh. 15 ■

Azərbaycan kinolarının lentdən rəqəmsallaşmaya keçidi nə yerdədir...



**Dekabrın 20-də Prezident İlham Əliyev Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşüb. Görüşdə çıxış edən Prezident deyib:**

# "Rusiya-Azərbaycan münasibətləri tarixdə ən yüksək səviyyədədir, Rusiyada yaşayan azərbaycanlılar bunu gündəlik həyatlarında hiss edirlər"

*Prezident İlham Əliyevin Sankt-Peterburqa səfəri Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə görüşdən başladı...*

- Mən bu gün Sankt-Peterburqa cənab Prezident Vladimir Putinin dəvətilə gəlmişəm.

Prezident Putinin dəvətilə MDB dövlət başçılarının ötən ilin sonunda da qeyri-rəsmi zirvə görüşü keçirilib, bu ilin sonunda da keçirilir. Bu, artıq ənənəyə çevrilibdir və çox gözəl ənənədir. Çünki yaxşı fürsətdir ki, bir daha dövlət başçıları görüşsünlər və gələn il görüləcək işlər haqqında fikir mübadiləsi aparsınlar.

Mən də bu dəfə Azərbaycan diasporunun rəhbərləri və nümayəndələri ilə görüşürəm. Əvvəllər də bizim görüşlərimiz olubdur, həm Bakıda, həm Sankt-Peterburqda. Amma bu gün bir daha görüşürük və bu, çox əlamətdar hadisədir. Mən bilirəm ki, Sankt-Peterburqda və Leninqrad vilayətində çox böyük Azərbaycan diasporu yaşayır və fəaliyyət göstərir. Uzun illərdir ki, bu təşkilata Vaqif Məmişov sədrlik edir. Bilirəm ki, burada yaşayan azərbaycanlılar Rusiyanın çox dəyərli vətəndaşları kimi həm Rusiyanın ümumi inkişafına töhfə verirlər, həm də ki, tarixi Vətənlə də əlaqələri saxlayırlar, gedib-gəlirlər. Mənim bundan xəbərim var, bu çox müsbət haldır.

...Rusiyanın İqtisadi inkişaf naziri Bakıya gələcək və sonra öz həmkarları ilə sərhədə gedib Samur çayı üzərində tikilmiş yeni körpünün açılışını edəcəklər.

Bu il Mehriban xanımın Rusiyaya çox uğurlu rəsmi səfəri baş tutdu. Səfər çox yüksək səviyyədə təşkil edildi. Prezident Vladimir Vladimiroviç Putin ilə görüşü, Prezident tərəfindən Mehriban Əliyevaya "Dostluq" ordeninin təqdim edilməsi, əlbəttə ki, böyük hadisədir. Biz bilirik ki, Rusiyanın Prezidenti prezident olmayan şəxsləri çox nadir hallarda qəbul edir. Bu istisna hal Rusiya Prezidentinin Azərbaycana münasibətinin təzahürüdür. Azərbaycanda da Rusiya Prezidentinə böyük hörmət var. İkitərəfli əlaqələrin inkişafında prezidentlərin, əlbəttə ki, xüsusi rolu vardır. Mehriban xanımın səfər çərçivəsində həm Baş Nazirlə, həm də Federasiya Şurasının sədri ilə görüşləri olubdur. Əlbəttə ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun yenidən açılması tarixi hadisədir.

Yəni, bu və digər hadisələr 2019-cu ildə Rusiya-Azərbaycan əlaqələrinin inkişafını şərtləndirdi. Bu işlərin iştirakçısı və bir çox məsələlərin təşəbbüskarı kimi mən tam qətiyyətlə deyə bilərəm ki, bu gün Rusiya-Azərbaycan əlaqələri tarixdə ən yüksək səviyyədədir.

Rusiyada yaşayan azərbaycanlılar, əminəm ki, bunu gündəlik həyatda hiss edirlər. Çünki Rusiyada azərbaycanlılara münasibət çox müsbətdir, onlar rahat yaşayırlar. Onların bir çoxu, demək olar ki, mütləq əksəriyyəti çox fəaldır, həm elmdə, təhsildə, biznesdə böyük imkanları var. Rusiyanın vilayətlərində və böyük



şəhərlərində qanunvericilik orqanlarında artıq azərbaycanlılar təmsil olunurlar. Azərbaycan əsilli vətəndaşların Rusiyada sayı təqribən 700 minə yaxındır. Burada işləməyə, yaxud da ki, ezamiyyətə gələn Azərbaycan vətəndaşlarının sayı da çoxdur. Ona görə Rusiya-Azərbaycan əlaqələrinin bu səviyyədə olması Rusiyada yaşayan azərbaycanlılar üçün də, bizim üçün də çox böyük dəyərdir.

Bildiyiniz kimi, Azərbaycanda da böyük rus icması yaşayır və fəaliyyət göstərir. Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır. Onlar bizim qardaşlarımız kimi Azərbaycanın ümumi inkişafına öz töhfələrini verirlər.

Ona görə hesab edirəm ki, ilin sonunda bizim görüşümüzün xüsusi mənası var. Fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Xahiş edirəm, mənim salamlarımı Sankt-Peterburqda və Leninqrad vilayətində yaşayan bütün soydaşlarımıza çatdırasınız.

Azərbaycanlıların Sankt-Peterburqdakı diaspor təşkilatının rəhbəri Vaqif Məmişov diasporun nümayəndələri adından Prezident İlham Əliyevə onlara göstərilən dəstəyə görə minnətdarlığını bildirib. Qeyd olunub ki, diasporumuz dövlət başçısının qayğısını daim öz üzərində hiss edir. Eyni zamanda, Azərbaycan və Rusiya prezidentlərinin dostluq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır, diasporumuz da bu münasibətlərdən bəhrələnir, onun dərinləşməsinə töhfəsini verir və bundan sonra da verəcək.

Sonda xatirə şəkli çəkdirilib.

## Nizaməddin Quliyev vəzifəsini də, azadlığını da itirdi

**Prezident İlham Əliyev Nizaməddin Quliyevin Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

"Trend"in məlumatına görə, sərəncamda deyilir ki, Nizaməddin Məhəmməd oğlu Quliyev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.



## Ermənistanın qondarma soyqırımı barədə bir sübutu varsa...

**Ermənistanın qondarma soyqırımı barədə heç bir sübutu yoxdur. "Trend"in məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

O bildirib ki, Ankara dəfələrlə Ermənistanı 1915-ci il hadisələrinin araşdırılması üçün arxivləri açmağa çağırsa da, İrəvan bundan imtina edir: "Ermənistanın arxivləri açmamasının səbəbi odur ki, heç bir "erməni soyqırımı" olmayıb".

R.T.Ərdoğan əlavə edib ki, Türkiyənin 1915-ci il hadisələri ilə bağlı 1,5 milyon arxiv sənədi var.

# Dağlıq Qarabağda da Azərbaycan bələdiyyələri fəaliyyət göstərəcək

**Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması ölkədə keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı bəyanat yayıb.**

İcmadan "Trend"ə daxil olan bəyanatda deyilir: "2019-cu il dekabrın 23-də ölkəmizdə 5-ci dəfə bələdiyyə seçkiləri keçiriləcək. Seçkilərin azad, demokratik və ədalətli şəraitdə keçirilməsi və Azərbaycan vətəndaşlarının öz seçki hüququnu ifadə etməsi üçün bütün şərait yaradılıb.

Artıq 20 ildir ki, Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ və ətraf rayonlardan başqa, respublikamızın hər bir rayon, qəsəbə və kəndlərində bələdiyyə institutları fəaliyyət göstərir. Ermənistanın işğalçılıq siyasəti məcburi köçkün düşmüş yüz minlərlə insanı bu illər ərzində Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunan bələdiyyə orqanlarına seçmək və seçilmək hüququndan məhrum edib.



Ermənistanın qəsbkarlıq siyasəti bütün fundamental hüquq və azadlıqlarımızın pozulması ilə bərabər yerli özünüidarəetmə orqanı formalaşdırmaq imkanlarımızı da əlimizdən alıb.

Dağlıq Qarabağın əzəli sakinləri olan azərbaycanlılar Ermənistanın işğalına son qoyulmaqla təhlükəsiz və ləyaqətli şəkildə öz torpaqlarına qayıtmaq, dağıdılmış yurdlarını bərpa etmək və abadlaşdırmaq arzusundadırlar. Biz əminliklə bildiririk ki, işğal olunmuş ərazilərdən qovulmuş azərbaycanlılar öz yurdlarına qayıtdıqdan sonra, orada Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həyata keçirəcəkləri quruculuq işləri ilə bələdiyyə orqanlarının fəaliyyətinə töhfə verəcəklər.

O zaman öz yurdumuzda formalaşdırılacaq yerli özünüidarəetmə orqanlarından təkcə biz deyil, həm də erməni icması faydalanacaq".

**"Artıq bir neçə icra başçısı vəzifədən çıxarıldı və səbəblərdən biri də o idi ki, onlar kasıb vətəndaşlar üçün nəzərdə tutulan vəsaiti ora-bura xərcləyirdilər". Bunu Prezident İlham Əliyev pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə deyib.**

# Kasıb-kusubun pulunu yeyən icra başçılarının dövranı bitir...

***İlqar Hüseynli:** "Bundan bəzi icra başçılarının nəticə çıxaracağı istisna deyil"*



Ölkə başçısının sözlərinə görə, əvvəlki dövrlərdə həm mərkəzi, həm də yerli icra orqanları tərəfindən subsidiyalarla bağlı böyük pozuntular var idi: "Buna son qoyulur və son qoyulmalıdır. Bu sahədə və bütün başqa sahələrdə tam şəffaflıq olmalıdır, o cümlədən, ödənişli ictimai iş yerlərinin yaradılması ilə bağlı. Artıq bir neçə icra başçısı vəzifədən çıxarıldı və səbəblərdən biri də o idi ki, onlar kasıb vətəndaşlar üçün nəzərdə tutulan vəsaiti ora-bura xərcləyirdilər. O siyahılara ya öz qohumlarını yazdırırdılar, ya da ki, ümumiyyətlə, o vəsait ünvana çatmırdı. Belə siqnallar olub, onlar araşdırılır və daha da ciddi araşdırılacaq. İş təkcə inzibati cəza ilə məhdudlaşmayacaq və bunu hər kəs eşitsin, bilsin, burada oturanlar və burada olmayanlar".

Məlum olduğu kimi, bəzi vəzifəli şəxslərin həbs edilməsi cəmiyyətdə böyük rezonans doğursa da, əslində, bu proses gözlənilən idi. Nəzərə almaq lazımdır ki, Prezident bu prosesi yeni icra başçılarını şəxsən qəbul edəndə artıq elan etmişdi. O vurğulamışdı ki, icra başçıları vəziyyəti düzgün qiymətləndirməli, çox ciddi təhlil aparmalı, çatışmayan cəhətləri üzə çıxarmalı və mövcud olan problemlərin həlli üçün səy göstərməlidirlər: "Birinci halda ləyaqətlə xidmət etməlisiniz. Bu, həm bu gün yeni təyin olunan icra başçılarına, həm də artıq icra başçısı vəzifəsində işləmiş və digər rayon və şəhərlərə göndərilən icra başçılarına aiddir".

Bütün hallarda, kasıb insanlara ayrılan vəsaitləri mənimsəyən icra başçıları ilə bağlı görülən tədbirlər digər icra başçılarına görk olacaqmı? Onlar nə dərəcədə bu kimi neqativ hallara son qoyacaqlar?

*"Xüsusən də imkansız ailələrə verilən ünvanlı sosial yardımlarla bağlı ciddi pozuntuların olduğu deyilir"*

Məsələyə münasibət bildirən ekspert İlqar Hüseynlinin sözlərinə görə, bundan bəzi icra başçılarının nəticə çıxaracağı istisna deyil: "Ancaq bunu bütün icra başçılarına aid etmək olmaz. Məsələ ondadır ki, bir sıra icra başçıları müxtəlif korrupsiya işləri ilə məşğul olublar. Həbs edilən Nizaməddin Quliyevlə eyni əmək stajına malik olan icra başçılarının yüzdə doxsanı eyni tipli, eyni ssenari üzərindən qurulmuş korrupsiyanı ediblər və indinin özündə də edirlər. Xüsusən də imkansız ailələrə verilən ünvanlı sosial yardımlarla bağlı ciddi pozuntuların olduğu deyilir. Eyni zamanda, işsizlər üçün 6 ay müddətinə nəzərdə tutulan əmək kartlarının mənimsənilməsi halları var. Bunu müxtəlif qohumlarının, yaxın adamlarının adına yazırlar. Bunların hamısının ayrıca bankomatları, ayrıca bankomatdan pulçəkən komandaları fəaliyyət göstərib. Yəni məsələyə sistemli şəkildə yanaşmaq lazımdır. Təbii ki, bir sıra icra başçılarının mənimsəmələrə yol vermələrinin ifşa edilməsi alqışlanmalıdır. Bu minvalla korrupsiya hallarının qarşısı alınır, bəzi icra başçıları məsuliyyətə cəlb edilir. Çünki bütün bunlar böyükmiqyaslı cinayət əməlləridir. Həmin cinayət əməllərinə görə də icra başçıları cavab verməlidirlər.

Qarşıdan parlament seçkiləri gəlir. Artıq siqnallar var ki, bəzi icra başçıları parlament seçkiləri üzərindən də korrupsiya ilə məşğul olmaq niyyətindədirlər. Ona görə də bu istiqamətdə görülən tədbirlərin miqyasının daha da genişləndirilməsinə ehtiyac var. O üzdən, proses davamlı və ardıcıl olmalıdır".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycanda icra başçılarının fəaliyyətinə və ya fəaliyyətsizliyinə yeni və daha tələbkar münasibət dövrü başlandı. Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

# İcra başçıları fəlakətli karyera sonluğundan yan keçmək istəyirlərsə...

***Aydın Quliyev:** "Qanunsuz işlər görən icra başçılarının cəzalandırılması xalqın iradəsinə uyğundur"*




Onun sözlərinə görə, dövlətin əmlakına və ictimaiyyətin mənafelərinə talançı nəzərlərlə baxan məsuliyyətsiz başçıların dövranı bitir və bu cür şəxslərin həmişə cəzasız qalacaqlarına inanaraq ruhdan düşən milyonlarla sadə insanlarımızın xəyal qırıqlığına son qoyulur: "Prezidentin qətiyyəti və iradəsi ilə görülən son cəza tədbirləri kifayət qədər obyektiv və əsaslı olmaqla milyonlarla insanın ürəyindən xəbər verdi. Təkcə başçıları cəzalandırılmış rayonların ictimaiyyəti yox, həm də bütün digər bölgələrin sakinləri özbaşına məmurların haqq etdikləri cəzalandırma prosesini maraqla izləyir və Azərbaycanda yüzlərlə vətəndaş öz yaşadığı bölgədə də haqq-ədalətin oxşar şəkildə təntənə çalacağını səbrsizliklə gözləyir. Prezidentin "məmurlara cəza təkcə inzibati xarakterdə olmayacaq" kimi öncədən xəbərdarlığından lazımi nəticəni çıxarmayanların obyektiv cəzadan yaxa qurtarmaq şansı olmayacaq".

Baş redaktor bildirib ki, icra başçılarının sahibkarlara qarşı qanunsuz təqib və talançı fəaliyyəti Prezidentin iqtisadiyyatı şaxələndirmək, iqtisadiyyatda özəl srktorun payını artırmaq, ölkənin ixracatını və valyuta gəlirlərini çoxaltmaq, beləliklə də son nəticədə insanların rifahını yaxşılaşdırmaq kimi strateji kursunun köklərini qazmaqdan başqa bir şey deyil: "Dövlət büdcəsindən kasıblara dəstək məqsədi ilə ödənişli ictimai işlər adı altında ayrılmış vəsaitlərin mənimsənilməsi ümumiyyətlə insanlıq ölçüləri ilə qəti bir araya sığmayan qeyri-etik və qeyri-humanist iş üsuludur. Prezidentin hər dəfə başçılara xalqla sayqılı davranmağı, sadə olmağı, rüşvətə uymamağı, sahibkarlara şərait yaratmağı, xalqın xidmətçisi olmağı öyrətdiyi bir faktdır. Lakin bu gün bir sıra başçıların cəzalandırılması sübut edir ki, özünün qanunsuz, qeyri-etik, qeyri-insani və talançı iş üsullarından əl çəkməyən məmurlar hələ də var. Yuxarı icra məmurları Prezidentin tövsiyə və anlatmalarına yetərincə məsuliyyətli yanaşa bilsələr, belə ağrılı karyera sonluqlarından yan keçə bilərlər. İcra başçılarına işlədikləri bölgələrə xaricdən investisiyalar cəlb etmək üçün təşəbbüskar olmaları üçün dəfələrlə çağırışlar edilib. Bu istiqamətdə Prezidentin etimadını doğrultmaq üçün heç olmasa bircə nümunə ortaya qoymaq əvəzinə, el malına əl qoymağın cəzasının ağır olacağını əvvəldən bilməli idilər".

Ekspert deyib ki, icra başçılarının antixalq fəaliyyətləri ölkənin daxili sosial-iqtisadi siyasətinə zərbə vurmaqla bərabər, dövlətimizin beynəlxalq imicini də ciddi təhlükələrə atır, əsas götürdüyümüz sosial dövlətçilik kursuna kölgə salır: "Azərbaycan Prezidentinin dərin xalq etimadına söykəndiyi beynəlxalq reytinq siyahılarında da birmənalı ifadə olunur. Təkcə bu fakt çox qəti bir qənaətə gəlməyə əsas verir ki, rüşvətxor və talançı başçılar ölkəmizdə sabitliyin mütləq qarantı olan Prezident-xalq birliyinin əsaslarını təhlükəli şəkildə hədəfə gətirirlər.

Qanunsuz işlər görən başçıların cəzalandırılması xalqın iradəsinə uyğundur və bütün icra başçılarını dürüst və şəffaf fəaliyyətə səsləməkdə ciddi təsir gücünə malikdir. Prezident bu qərarları ilə "oğru cəzalanmalıdır" kimi böyük ədalət prinsipinin məğlubedilməz olduğunu nümayiş etdirdi".

# Azərbaycanda pullu adamların sosial məsuliyyət(sizlik) problemi...

**Prezident İlham Əliyev dekabrın 19-da pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə imkanlı adamların sosial məsuliyyətinin necə olması ilə bağlı fikir bildirib.**



***Aydın Hüseynov:** "Hər bir sahibkar dövlətin ona yaratdığı şəraitdən bəhrələnərək fəaliyyət göstərir, biznesini qurub, öz büdcəsini formalaşdıra bilir"*

Dövlət başçısı qeyd edib ki, bu il olan zəlzələnin üstündən 10 ay keçib və bütün əsas tikinti işləri artıq başa çatıb: "Minlərlə ev tikildi, təmir və bərpa edildi. Bəziləri deyir ki, indi vətəndaşlar gərək bu evləri özləri bərpa etsinlər, gərək sığortalasınlar. Əlbəttə, gərək sığortalasınlar. Mən də söz düşmüşkən bunu deməliyəm, o cümlədən, ticarət obyektləri, onların hər biri sığortalanmalıdır ki, sabah bədbəxt hadisə, yanğın baş verəndə gedib sığorta şirkətinə müraciət etsin. Yoxsa ki, yanğın baş verir, günahkar da özüdür, sonra da gəlib deyirlər ki, dövlət bunun pulunu versin. Hansı ölkədə belə şey var? Hansı ölkədə dövlət özəl sahibkara hansısa bədbəxt hadisəyə görə təzminat ödəyir? Heç bir yerdə belə şey yoxdur. Hərə gedir öz əmlakını, öz mülkünü sığortalayır, bədbəxt hadisə baş verəndə sığorta şirkəti gəlib onun pulunu verir, vəssalam. Bizdə də belə olmalıdır. Mən bunu özəl şirkətlərə, ticarət obyektlərinə aid edirəm və xəbərdarlıq edirəm ki, əgər haradasa daşqın, yanğın nəticəsində nəsə yanır, batırsa, dövlətdən dəstək almağa ümid etmək lazım deyil. Düzdür, biz bəzi hallarda ən kasıb, ən yoxsul təbəqəyə kömək göstəririk. Amma altında böyük maşınlar, mülklər, villalar olan sahibkara dövlət nə üçün kömək etməlidir? Axı bu, ədalətsizdir. Dövlət kimə kömək etməlidir, ehtiyacı olana. Pulu olan adam özü kasıba kömək etməlidir. Mən bunu sahibkarlara dəfələrlə demişəm, onların sosial məsuliyyəti olmalıdır. Pul qazanırlar, dövlət şərait yaradıb, harada belə şərait var? Ölkələr var ki, od içindədir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, Avropada, Asiyada, Latın Amerikasında müharibələr, münaqişələr, qanlı toqquşmalar, kütləvi etirazlar, polis zorakılığı, dağıntılar baş verir. Bizdə sabitlikdir, kim yaradıb bunu, biz, kim faydalanır, bütün vətəndaşlar, o cümlədən, sahibkarlar. Rahat yaşayırlar, heç kim onlara dəymir, əksinə, Prezident həmişə onları dəstəkləyir. Getsinlər camaata, kasıba əl tutsunlar. Biz o insana kömək edirik ki, onun ehtiyacı var. Şamaxıda, Ağsuda, İsmayıllıda zəlzələ baş verdi. Biz necə biganə qala bilərdik, vətəndaşlar qışda donsunlar? Ona görə biz dərhal vəsait ayırdıq, bütün qurumları səfərbər etdik və 10 ay ərzində qış gələnə qədər onların evləri tikildi və təmir edildi. Bax, bu, bizim məsuliyyətimizdir, o insanlar ki, doğrudan da ehtiyac içindədirlər, o evləri özləri bərpa edə bilməzlər. İndi o evləri sığortalamaq üçün maarifləndirmə işləri aparılmalıdır. Ancaq hansısa biznesmenə, böyük mülklərə sahib olan varlı bir adama dövlət niyə kömək etməlidir? Qətiyyən elə şey ola bilməz və hər kəs nəticə çıxarsın".

Göründüyü kimi, ölkə başçısı bəzi imkanlı adamların həm dövlətlə münasibətdə, həm də cəmiyyətlə təmasda insaflı olmalarını istəyir. Ölkə başçısı haqlı olaraq qeyd edir ki, bəzi imkanlı şəxslər öz sosial məsuliyyətlərini lazımınca dərk etmirlər. Ölkə başçısının imkanlı adamlara verdiyi bu mesajdan onlar hansı nəticələri çıxarmalıdırlar?

Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab Prezidentin dəyərli fikirlərindən hər bir iş adamı və imkanlı şəxslər nəticə çıxarmalıdır: "Biz artıq müstəqil ölkədə yaşayırıq. Bu ölkədə fərdi mülkiyyətçilik geniş inkişaf edib. Bəzən görürsən ki, insanlar pul qazananda dövlətin yanında olmaq, hansısa sosial layihələrə zərrə qədər də olsun dəstək vermək istəmirlər, amma bir malına zərər toxunanda dövlətdən pul istəyir. Əksəriyyəti də mağazasını, malını, mülkünü sığorta etdirmir. İnsanlar pul qazananda bu barədə əvvəlcədən fikirləşməlidirlər. Ölkə başçısı çox doğru olaraq qeyd etdi ki, bütün dünyada belə hallarla bağlı dəyən ziyanı sığorta şirkətləri qarşılayır. Bunun üçün də iş adamı öz məsuliyyətini dərk etməlidir. Hər bir sahibkar dövlətin ona yaratdığı şəraitdən bəhrələnərək fəaliyyət göstərir, biznesini qurub, öz büdcəsini formalaşdıra bilir. Dövlət onlara güzəştli kreditlər verir və bacardığı qədər arxalarında durursa, bundan sui-istifadəyə yol verə bilmərik. Bunun müqabilində hər bir imkanlı şəxsin üzərinə həm də bir sosial məsuliyyət düşür".

Millət vəkilinin sözlərinə görə, bəzi adamlar çox zərərli psixologiya ilə yaşayırlar: "Dövlətdən nə qoparsam qənimətdir prinsipilə hərəkət etmək çox zərərlidir. Sosial məsuliyyətli olmaq, kasıblara əl tutmaq həm də savabdır. Bu, Allah qarşısında da bəyənilən əməldir. Bu baxımdan da hesab edirəm ki, ölkə başçısının tövsiyələrinə əməl etməklə iş adamlarında həm nümunəvi vətəndaş modelinə uyğun hərəkət etmiş olurlar, həm də mənəvi cəhətdən saflaşırlar. Hiss olunur ki, artıq yeni nəsil iş adamlarında bu göstəricilər inkişaf edir. Sizin də üzərinizə böyük yük düşür. Xahiş edirəm ki, belə fikirlərin cəmiyyətdə daha çox yayılmasına dəstək verəsiniz".

***Məhəmmədəli QƏRİBLİ***

# İcra başçılarının talançılığı olmasaydı, ödənişli ictimai işlərin sayını 40 mindən hansı həddə qaldırmaq olardı...

**Bildiyimiz kimi, Prezident İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirə keçirilib. Müşavirədə kənd təsərrüfatı sahəsinin inkişafı və problemlərinə dair bir sıra məsələlər müzakirə edilib, o cümlədən, bölgələrdə işsizliyin aradan qaldırılması üçün yaradılan ödənişli iş yerlərindən danışılıb.**



***Natiq Cəfərli:** "İcra hakimiyyətlərinin müdaxiləsi olmasaydı, ödənişli ictimai iş yerlərinin sayını 40 mindən iki dəfə artırıb təxminən 100 minə çatdırmaq olardı"*

"...Təbii ki, bu rayonlarda işsizliklə bağlı problemlər uğurla həll olunur. Eyni zamanda, bizim çox gözəl indikatorumuz var. Bildiyiniz kimi, sosial müdafiəni gücləndirmək üçün biz indi 40 minə yaxın ödənişli ictimai yeri yaratmışıq, dövlət tərəfindən maliyyələşir. İş tapa bilməyən vətəndaşlar bu ictimai iş yerlərində işlə təmin olunurlar..." - deyə ölkə başçısı vurğulayıb.

İcra başçılarının talançılığı olmasaydı, ödənişli ictimai işlərin sayını 40 mindən hansı həddə qaldırmaq olardı?

Tanınmış iqtisadçı-ekspert Natiq Cəfərli "BakıXəbər"ə bildirdi ki, bəzi icra başçılarının yarıtmaz fəaliyyəti sahəsində bu kimi hallar baş verir: "Ümumiyyətlə, Azərbaycanda icra hakimiyyətlərinin iqtisadiyyatda, idarəetmədə oynadığı rola yenidən baxılmalı, onların səlahiyyətləri kifayət qədər azaldılmalı, bu təşkilatlar yalnız təsərrüfat işləri ilə məşğul olan bir quruma çevrilməlidirlər. İcra başçıları tərəfindən sosial-iqtisadi sahələrə müdaxilələr həddən artıq çoxdur. İcra hakimiyyəti stukturlarının uzun illərdir korrupsiya içində olması onların effektivliyini xeyli dərəcədə aşağı salıb. Prezidentin verdiyi qərar və sərəncamların, fərmanların, mərkəzi hökumətin verdiyi qərarların yerlərdə uyğulanması ciddi problemlər yaradır. Ona görə də burada söhbət yalnız ödənişli ictimai iş yerlərində getmir, ümumilikdə, bu kimi məsələlərin kökündən həll edilməsinə ehtiyac var. İcra strukturlarının səlahiyyətləri qanunlar çərçivəsində məhdudlaşdırılmalıdır. Əminəm ki, gələcəkdə Prezident səviyyəsində bu məsələ ilə bağlı ciddi qərarlar veriləcək. Amma qanunvericilik təşəbbüsünə ehtiyac var ki, icra hakimiyyətlərinin sosial-iqtisadi məsələlərə müdaxiləsi minimuma endirilsin. Bundan sonra regionlarda iqtisadi, sosial-ictimai məsələlərin həlli daha da gücləndirilə bilər. İndiki qanunvericilik çərçivəsində icra hakimiyyətlərinin səlahiyyətlərinin harada başlayıb, harada bitdiyi aydın deyil. Yerli icra strukturları da bundan öz məqsədləri, maraqları üçün istifadə edirlər" - deyə N.Cəfərli bildirdi.

*"İcra strukturlarının səlahiyyətləri qanunlar çərçivəsində məhdudlaşdırılmalıdır"*

N.Cəfərli hesab edir ki, icra başçılarının talançılığı olmasaydı və onlar öz işlərinə daha məsuliyyətlə yanaşsaydılar, ödənişli ictimai işlərin sayı 40 mindən çox olardı. "İcra hakimiyyətlərinin müdaxiləsi olmasaydı, ödənişli ictimai iş yerlərinin sayını 40 mindən iki dəfə artırıb təxminən 100 minə çatdırmaq olardı" - deyə N.Cəfərli bildirdi.

***İradə SARIYEVA***

# AXC-Müsavat hakimiyyəti dövründə yoxa çıxmış 20-30 milyon dollar neft bonusunun izi ilə...

**Prezident İlham Əliyev pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə giriş nitqində konkret sahələr üzrə keçirilən müşavirələrin əhəmiyyətindən danışıb. Prezident xüsusilə də müstəqilliyin ilk illərində üzüm sahələrinin məhv edilməsinin yanlışlığına diqqəti yönəldib.**




Dövlət başçısı bildirib: "Əvvəlki dövrlərdə mənim sədrliyimlə çəltikçilik, sitrusçuluq, tütünçülük, çayçılıq üzrə müşavirələr keçirildi. Bu ənənəvi sahələr inkişaf edir. Biz siqareti ixracyönümlü məhsul kimi görürük. Bu il Sumqayıtda yeni siqaret fabriki açıldı, Bakıdakı fabrik yenidən quruldu. Biz həm idxaldan asılılığı azaldırıq, həm də böyük ixrac imkanı yaradırıq. Yəni bütün bu sahələr bizim üçün ənənəvi sahələrdir. Sadəcə olaraq, dövlət diqqəti azalanda bu sahələr məhvə doğru gedirdi, o cümlədən, üzümçülük. İndi mən bunu qeyd etdim, Ulu Öndərin vaxtında 2 milyon ton üzüm istehsal olunurdu, onlarla şərab zavodu fəaliyyət göstərirdi. Hamısı sıradan çıxdı, məhv edildi. O zavodların materialları satıldı, yeni böyük bir cinayət törədildi və deməK olar ki, bu sahə itibbatmışdı. Mən rəqəmlərə baxanda gördüm ki, bir neçə il bundan əvvəl cəmi 100 min ton üzüm istehsal olunurdu, yeni bağlar salınmırdı. Çünki əl vermirdi, gərək xərcləyəsən, 5-6 il gözləyəsən, məhsul götürəsən, sonra hara satasan? Şərab zavodları yox, emal yox, ona görə üzümçülük batıb gedirdi. Bir də ki, əlbəttə, Ulu Öndər Azərbaycandan gedəndən sonra burada rəhbərlik etmiş şəxslər də bu cinayətin törədilməsində fəallıq göstərirdilər, üzüm bağlarını qırırdılar. Bu, böyük bir cinayətdir. Nə Ukraynada, nə Gürcüstanda, nə Moldovada, nə Ermənistanda bunlar olmadı. Ancaq burada, nəyə görə? Çünki buraya Qorbaçov tərəfindən cəza kimi bir yaramaz adam göndərildi, onun da əsas məqsədi Azərbaycanı məhv etmək idi və buna nail olmağa çalışırdı. Ancaq Azərbaycan xalqı imkan vermədi və cinayət törədəndən sonra 1990-cı ildə buradan qaçdı".

Prezident sonra AXC-Müsavat hakimiyyəti zamanı edilən bəzi maliyyə maxinasiyalarına diqqəti yönəldib: "Onların məqsədi talançılıq idi, Ləl-Cəvahirat Fondunu taladılar, orada bir dənə də əşya qalmamışdır, hamısını satdılar, neft bonuslarını oğurladılar. Səhv etmirəmsə, onların dövründə təqribən 20 və ya 30 milyon dollar dəyərində neft bonusu verilmişdi, oğurladılar. Sonra bunu axtarmağa başlayanda onun izi-tozu da qalmamışdı. Bir il ərzində milyardlarla dollar ziyan vurdular, taladılar, oğurladılar, öz ciblərini doldurdular, sonra da qorxaqcasına fərarilik edərək hakimiyyəti tərk etdilər, vəzifələrini dondurdular və bu gün də öz rəzil hərəkətləri ilə cəmiyyətdə ikrah hissi doğururlar. Onların bu qorxaqlığı, panika, isterika, paronoya və satqınlığı artıq heç kimə sirr deyil. Bax, bu idi real vəziyyət".

## *İlham Şaban: "...Böyük Britaniyanın sabiq baş naziri Marqaret Teçer 1992-ci ilin sentyabr ayında Bakıda səfərdə olarkən verib"*

## *Qabil Hüseynli: "Həmin bonusun məhz Marqaret Teçer tərəfindən təqdim olunmasına bir qədər şübhəli yanaşıram"*

Prezidentin fikirlərindəki 20-30 milyon neft bonuslarının oğurlanması ilə bağlı məsələ xüsusilə diqqəti cəlb edir. Söhbət hansı bonuslardan gedir və həmin məbləğin yoxa çıxmasına görə məsuliyyət kimin üzərinə düşür?

Neft məsələləri üzrə ekspert İlham Şaban "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezidentin çıxışında neft bonusları ilə bağlı bildirdiyi fikirlər reallığı əks etdirir: "Söhbət 30 milyon bonusdan gedir. Bunu da Böyük Britaniyanın sabiq baş naziri Marqaret Teçer 1992-ci ilin sentaybr ayında Bakıda səfərdə olarkən verib. İri neft şirkətləri hər zaman belə bonus taktikasından istifadə edirlər. Həmin pulun sonradan yox olması ilə bağlı mediada çoxlu sayda məlumat dərc edilib. Hər halda, Prezidentdən informasiyalı adam yoxdur. Bunu ölkə başçısı deyirsə, deməli, həmin pulun taleyi naməlumdur. O pulların hara xərcləndiyi barədə mən də nəsə deyə bilmərəm. Bu barədə ən müfəssəl informasiyaya Pənah Hüseyn malik ola bilər. Çünki pullar Azərbaycan dövlətinə bonus şəklində verilibsə, bunun da cavabdehi o zamankı rəhbərlik olmalıdır. Bu iş birbaşa Pənah Hüseynin kurasiyasında olduğu üçün, daha dərin bilgiyə o sahib ola bilər".

Politoloq Qabil Hüseynli də "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, iri neft şirkətlərinin Azərbaycana bonus verməsi mümkündür: "Bundan dünya praktikasında geniş istifadə olunur. Adətən böyük kompaniyalar irihəcmli layihələr imzalayanda pay kimi bonus ödəyirlər. Ancaq həmin bonusun məhz Marqaret Teçer tərəfindən təqdim olunmasına bir qədər şübhəli yanaşıram. Çünki siyasi adamlar siyasi razılaşmalara qol çəkirlər. Bonus işini isə neft kompaniyalarının özləri həll edir. Həmin bonusun məbləğinin hansı həcmdə olmasını dəqiq söyləyə bilmərəm".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan Demokrat Firqəsinə qarşı təxribat - Partiyanın plaketlərə vurulan möhürü saxtadır, yoxsa oğurluqla əldə olunub?!

**İranlı Mühacirlər Cəmiyyəti (İMC) cari ilin dekabr ayının 14-də illik hesabat adı ilə bir tədbir keçirdi və cəmiyyətin bir qrup üzvünü Bakının Əli bəy Hüseynzadə 66 ünvanına topladı. Öncədən məlumat verilmişdi ki, sonda "21 Azər" Hərəkatının 74 illiyi münasibətilə tədbir də düzənlənəcək və orada yalnız alim və mütəxəssislərin çıxışları dinlənəcək.**

İMC rəhbəri ilə razılaşmışdırılmışdı ki, Azərbaycan Demokrat Firqəsinin 9 noyabr 2019-cu il tarixli konqresində yekdilliklə Azərbaycan Demokrat Firqəsinin (ADF) sədri seçilən Rəhim Hüseynzadə (o eyni zamanda İMC sədrinin birinci müavinidir) və firqəyə aid olmayan toplantıda özünü qeyri-qanuni sədr elan etdirən 87 yaşlı Adilə Çernikbülənd (həmin gün keçirilən tədbirdəki çıxışında isə 21 Azərdə 15 yaşı olduğunu vurğuladı. Elədirsə, onda bu gün 90-91 yaşı olmalıdır!) o günə xatir sakitcə tədbiri izləyəcək, mükafatlandırmada iştirak etməyəcəklər.

Sən demə, bu vədlər ilğımdan başqa bir şey deyilmiş. Öncədən düşünülən təxribatın reallaşdırılması üçün bütün imkanlar işə salınacaq, narazılığa baxmayaraq, verilmiş sözə əməl olunmayacaq, toplantıdan bir vasitə kimi istifadə olunacaqdı. Razılaşmanın pozulmayacağına qarant durmuş İMC sədri iradəsindən asılı olmayaraq təxribatçıların liderinə iclasın sədri yerini təhvil verəcək, o isə uzunuzadı nitqini bitirməyin vacibliyini yalnız bezmiş adamların narazılıq yağan surətlərindən oxuduqdan sonra çıxışına yekun nöqtəsi qoyacaqdı.

Əvəzində nə baş verdi. Bu zaman bir neçə yerə parçalanan xalq fədailəri partiyasının müəyyən qanadının İ.Şiri adlı təmsilçisi Ə.Çernikbüləndi ADF-nin sədri seçilməsi (?) münasibətilə təbrik etdi. Saxta sədr bundan xoşhallanaraq reklam xarakterli fotoşəkillər çəkdirdi.

Həmin fotolar üzdəniraq qrupun 4-5 il əvvəl qeyri-qanuni ələ keçirdiyi, bu müddətdə dəst-xətti ADF-nin proqram sənədləri ilə ziddiyyət təşkil edən "adfmk.com" saytında yerləşdirildi. Hələ bu azmış kimi, "yeni lider"in adından partiya üzvlərinə ünvanlanan Yeni il təbriki də yayımlandı.

İclas günü belə haqsızlığa iradını bildirənlərə ADF-nin məsullarına qarşı son 30 ildə hansı təşkilata mənsub olduqlarını konkret sənədlə sübut edə bilməyən bir qrup şəxs tərəfindən təzyiq cəhdi göstərildi. İnana bilmirdik ki, toplantının sakit keçəcəyinə bizi öncədən inandırmağa çalışan və buna qarant duran cəmiyyət rəhbərliyinin bütün bunlardan xəbəri yoxdur.

Əlbəttə, sadaladıqlarımızın üstündən birtəhər keçmək də olardı. Amma ən təəccüblüsü bu idi ki, razılaşmanın ziddinə olaraq, tanınmış alim və ziyalılara verilən plaketlərdə İMC ilə yanaşı ikinci bir təşkilatın - ADF-nin də adı var idi. Onlar "Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri Adilə Çernikbülənd" sözləri ilə imzalanaraq möhürlənmişdi. Bu lap ağ hərəkət olsa da, toplantının ssenarisində əvvəlcədən nəzərə alındığı şübhə doğurmurdu.

Məlumat üçün bildirək ki, 1945-ci ildə Təbrizdə təsis olunan ADF-nin bu möhürü indinin özündə də qanuni sahiblərindədir və son iki-üç ayda ADF rəhbərliyi tərəfindən imzalanan rəsmi partiya sənədlərinə dəfələrlə vurulub. Bəs elə isə, plaketdə gördüyümüz möhür nümunəsi haradan, necə əldə olunub? İMC rəhbərliyi də möhürün bizdə olduğunu bildiyi halda, niyə saxta plaketdə imzasının və qurumların adının qoşa getməsini özünə rəva bilib?!

Sənəd saxtalaşdırılması məsələsinə çox ciddi və həssaslıqla yanaşmaq lazımdır. Belə ki, saxta yolla ADF-nin möhürünü hazırlayan da, hazırlatdıran da böyük və ağır cinayət etmiş sayılır. Hətta mətbəədə və ya hər hansı bir nəşriyyatda "scan" etmə üsulu ilə bu möhürü və ya kiminsə imzasını hər hansı bir sənədin altına yerləşdirmək və çap etmək özü də cinayət işi sırasında sayıla bilər. Bütün hallarda, bu işi görən və gördürən hər bir kəs həm qanun, həm vicdan və həm də ADF qarşısında məsuliyyət daşıyır.

Biz inamdayıq ki, bu hərəkət İMC rəhbərliyi ilə tarixən mövcud olan sıx münasibətlərimizin korlanmasına yönələn cəhddir və İMC-nin getdikcə artmaqda olan nüfuzunu gözügötürməzlikdən qaynaqlanır.

Yaxşı olardı ki, bundan sonra İMC rəhbərliyi təqdim etdiyi sənədləri yalnız özünə aid möhürlə təsdiqləsin. Belə ki, İMC siyasi cəmiyyət deyil, müxtəlif sosial mənşəli, iqtisadi və siyasi maraqlı iranlı mühacirlərin könüllü ittifaqı əsasında təşkil olunmuş İctimai Birlikdir. Onun sənədlərində bundan sonra ADF kimi siyasi bir təşkilatın möhürünün olması yolverilməzdir.

Partiya üzvlərimizi və ictimaiyyəti narahatlıqdan qurtarmaq üçün bildiririk ki, apardığımız araşdırmalar nəticəsində artıq təxribatın icraçılarının konkret olaraq adları və kimlikləri müəyyənləşdirilib. Bu barədə geniş məlumat veriləcək, sözügedən şəxslərin kimliyinə aydınlıq gətiriləcək, qeyri-qanuni hərəkətləri ifşa ediləcək.

ADF MK bu kimi siyasi əxlaqa zidd hərəkətlərə son qoyulmasında israrlıdır və bu hadisəni təxribat hesab edir.

***Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi***

**Sığorta sisteminin inkişafına heç bir ölkədə iqtisadiyyatın digər sferalarının inkişafından ayrı baxılmır. Tədqiqatlar göstərir ki, sığorta yeganə iqtisadi sistemlərdəndir ki, onun inkişaf səviyyəsi iqtisadiyyatla yanaşı, digər sferalara, hətta insanların həyat tərzinə də birbaşa təsir göstərir.**

# Əmlak sığortası məsələsində varlıların və sahibkarların Prezidentin dediklərindən inciməyə haqqı yoxdur...

## *Xəyal Məmmədxanlı: "Daşınmaz əmlakın sığortası məcburi olmalıdır"*



*"...ondan sonra insanlar düşünür ki, nəsə baş versə, dövlət kompensasiya ödəyəcək"*

Fövqəladə hadisələr zamanı daşınmaz əmlak və ticarət obyektlərinə müəyyən zərər dəyərsə, həmin obyektin və əmlakın sığortası varsa, sahibkar bu hadisədən zərərsiz çıxacaq. Təəssüf ki, Azərbaycanda sığorta sahəsini ciddiyə almırlar. Xoşagəlməz hadisə qeydə alınan zaman əmlakın sığortasız olduğunu əsas gətirib, müəyyən məbləğdə ona dəymiş zərərin ödənilməsini tələb edirlər. Azərbaycan hökuməti də hər zaman ehtiyacı olan şəxslərə dəstək olub. İstər zəlzələnin vətəndaşlara vurduğu ziyan və ya ticarət obyektlərində qeydə alınan yanğın zamanı sahibkarlara dəymiş zərər kompensasiya şəklində ödənilib.

Ancaq bu hal dünyanın heç bir ölkəsində yoxdur. Hətta bu məsələyə Prezident İlham Əliyev dekabrın 19-da pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə toxunub. Prezident çıxışı zamanı qeyd edib ki, bu il zəlzələ oldu: "Üstündən cəmi 10 ay keçib, bütün əsas tikinti işləri artıq başa çatıb. Minlərlə ev tikildi, təmir və bərpa edildi. Bəziləri deyir ki, indi vətəndaşlar gərək bu evləri özləri bərpa etsinlər, gərək sığortalasınlar. Əlbəttə, gərək sığortalasınlar. Mən də söz düşmüşkən bunu deməliyəm, o cümlədən, ticarət obyektləri, onların hər biri sığortalanmalıdır ki, sabah bədbəxt hadisə, yanğın baş verəndə gedib sığorta şirkətinə müraciət etsin. Yoxsa ki, yanğın baş verir, günahkar da özüdür, sonra da gəlib deyirlər ki, dövlət bunun pulunu versin. Hansı ölkədə belə şey var? Hansı ölkədə dövlət özəl sahibkara hansısa bədbəxt hadisəyə görə təzminat ödəyir? Heç bir yerdə belə şey yoxdur. Hərə gedir öz əmlakını, öz mülkünü sığortalayır, bədbəxt hadisə baş verəndə sığorta şirkəti gəlib onun pulunu verir, vəssalam. Bizdə də belə olmalıdır. Mən bunu özəl şirkətlərə, ticarət obyektlərinə aid edirəm və xəbərdarlıq edirəm ki, əgər haradasa daşqın, yanğın nəticəsində nəsə yanır, batırsa, dövlətdən dəstək almağa ümid etmək lazım deyil. Düzdür, biz bəzi hallarda ən kasıb, ən yoxsul təbəqəyə kömək göstəririk. Amma altında böyük maşınlar, mülklər, villalar olan sahibkara dövlət nə üçün kömək etməlidir? Axı, bu, ədalətsizdir. Dövlət kimə kömək etməlidir, ehtiyacı olana. Pulu olan adam özü kasıba kömək etməlidir. Mən bunu sahibkarlara dəfələrlə demişəm, onların sosial məsuliyyəti olmalıdır. Pul qazanırlar, dövlət şərait yaradıb, harada belə şərait var? Ölkələr var ki, od içindədir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, Avropada, Asiyada, Latın Amerikasında müharibələr, münaqişələr, qanlı toqquşmalar, kütləvi etirazlar, polis zorakılığı, dağıntılar baş verir. Bizdə sabitlikdir, kim yaradıb bunu, biz, kim faydalanır, bütün vətəndaşlar, o cümlədən sahibkarlar. Rahat yaşayırlar, heç kim onlara dəymir, əksinə, Prezident həmişə onları dəstəkləyir. Getsinlər camaata, kasıba əl tutsunlar. Biz o insana kömək edirik ki, onun ehtiyacı var. Şamaxıda, Ağsuda, İsmayıllıda zəlzələ baş verdi. Biz necə biganə qala bilərdik, vətəndaşlar qışda donsunlar? Ona görə biz dərhal vəsait ayırdıq, bütün qurumları səfərbər etdik və 10 ay ərzində qış gələnə qədər onların evləri tikildi və təmir edildi. Bax, bu, bizim məsuliyyətimizdir, o insanlar ki, doğrudan da ehtiyac içindədirlər, o evləri özləri bərpa edə bilməzlər. İndi o evləri sığortalamaq üçün maarifləndirmə işləri aparılmalıdır. Ancaq hansısa biznesmenə, böyük mülklərə sahib olan varlı bir adama dövlət niyə kömək etməlidir? Qətiyyən elə şey ola bilməz və hər kəs nəticə çıxarsın".

Qeyd edək ki, Bakıda fəaliyyət göstərən böyük ticarət mərkəzlərində son aylarda ard-arda bir neçə yanğın hadisəsi baş verib. Hər bir hadisə zamanı ticarət mərkəzlərində fəaliyyət göstərən sahibkarlara külli miqdarda ziyan dəyib. Təbii ki, Azərbaycan dövləti bu cür hadisələr zamanı öz vətəndaşına sahib çıxır. Amma bu yanğınların ortaya çıxardığı acı gerçəklik ondan ibarətdir ki, yanğın baş verən əksər obyektin fövqəladə hallardan sığortası olmur. Bəs sahibkarlar obyektlərini və mallarını sığorta etdirməkdə niyə maraqlı deyillər?

Sığorta məsələləri üzrə ekspert Xəyal Məmmədxanlı bizimlə söhbətində qeyd etdi ki, əmlakın sığortası icbari olmalıdır: "Hələ "Diqlas" Ticarət Mərkəzi yananda belə bir açıqlama verdim ki, bəli, ölkə başçısı humanistlik edib orada çalışan insanlara kompensasiya verdi. Amma, əslində, bu, olmamalı idi. Bunun səbəbi o deyil ki, insanlara yardım etmək lazım deyil. Sadəcə olaraq, insanlarımız düşünürlər ki, nəsə baş versə, dövlət kompensasiya ödəyəcək. "Diqlas"da baş vermiş yanğından sonra həmin sahibkarların bir qismini fəaliyyətlərini davam etdirmək üçün başqa yerə köçürdülər. Qəribədir ki, onlar həmin yerdə də sığortalanmayıblar. Görünür, onlar gözləyirlər ki, növbəti fövqəladə hal baş versə, dövlət onlara yenə də kompensasiya ödəyəcək.

Müəyyən vaxtlarda ölkələrdə zəlzələ, sel, vulkan, qasırğa və daşqın kimi ciddi təbii fəlakətlər ola bilər. Belə olan hallarda sığorta şirkətləri bu işin qarşısında aciz qala bilərlər. Bu zaman dövlətin müdaxiləsi lazım gələ bilər. Amma yanğın zamanı xüsusilə özəl sahibkarlıq subyektlərinə dəyən zərərin dövlət tərəfindən ödənilməsi qəbuledilməzdir. Nəzərə almaq lazımdır ki, ölkəmizdə "İcbari sığortalar haqqında" Qanunun tətbiqinə dair fərman 2011-ci ildə imzalanıb. Dövlət bu qanunla yükü sığorta şirkətlərinin çiyninə atır ki, büdcəyə əlavə xərc yaranmasın. Təəssüf ki, vəziyyət ürəkaçan deyil".

Həmsöhbətimiz onu da vurğuladı ki, əmlakın vəziyyəti bilavasitə sığorta şirkətinin mülahizəsinə təsir göstərir: "Onlar əmlakın vəziyyətini dəyərləndirir, sonra düşünürlər ki, mən bu əmlakı sığorta edim, ya etməyim. Və ya sığorta edəcəyəmsə, hansı şərtlərlə sığorta edim. Buraya bir çox faktor daxildir, onları da iki yerə bölmək olar. Birincisi, sığorta risqinə təsir göstərən maddi faktorlar, ikincisi, sığorta faktına təsir göstərən insan amili. Təbii ki, burada binanın inşa olunması, istifadə olunan materiallar, onun içərisində həyata keçirilən fəaliyyətin növü, orada malların tez alışan maddədən ibarət olub-olmaması, ərazidə ixtisaslaşmış yanğın briqadasının olub-olmaması, ərazinin yanğın təhlükəsizlik sistemlərinin nə dərəcədə müasir və ya çevik olması və sair nəzərə alınır.

Onlarla belə faktor var ki, bilavasitə sığorta şirkətinin mülahizəsinə təsir göstərir. Təbii ki, burada söhbət daha çox könüllü sığortalardan gedir. Təəssüflər olsun ki, "İcbari sığorta haqqında" Qanunda icbari sığortalar zamanı belə halları və xüsusilə də standartlara cavab verməmə və sair halları əsas gətirərək əmlakın sığortalanmasından imtina hüququ verilməyib. Əgər bina qəzalı deyil, yarımçıq deyilsə, sökülmürsə, icbari sığorta edilməlidir. Ancaq binanın özünün dediyimiz bir çox faktoru bilavasitə sığorta şirkətinin mülahizəsinə təsir göstərir. Bu halda, haqlı olaraq, sığorta şirkəti onları sığortalamaqdan imtina edə bilər".

**Günel CƏLİLOVA**

# Pambığın istehsalından hazır məhsula qədər tamamlanmış dövriyyə sistemi - Prezident Azərbaycanın əsas aqrosənaye hədəfini göstərdi...

**"Əsas vəzifə nəinki pambıq ipliyi, - bu, birinci hədəfdir, - əsas məsələ son məhsul ixrac etməkdir". Bunu Prezident İlham Əliyev pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə bildirib.**



## ***Rəsul Cahangirli:*** *"Qabaqcıl texnologiyalara əsaslanan yeni emal və istehsal sahələrinin təşkilinə ehtiyac var"*

Ölkə başçısının sözlərinə görə, hazırda bu işin ilkin mərhələsindəyik: "Ancaq buna baxmayaraq, deyə bilərəm ki, bu ilin doqquz ayında pambıqçılıq fermerlərə və şirkətlərə, ümumiyyətlə, Azərbaycana 111 milyon dollar gəlir gətirib. Yəni 111 milyon dollar dəyərində məhsul, o cümlədən, 87 milyon dollarlıq mahlıc, 22,5 milyon dollarlıq pambıq ipliyi və 2 milyon dollarlıq pambıq yağı ixrac edilib. Eyni zamanda, pambıqçılıq sənayesinin tullantılarından heyvan yemi kimi də istifadə olunur. Bu rəqəmlər onu göstərir ki, biz hazırda mahlıc ixrac edirik. Ancaq əsas vəzifə nəinki pambıq ipliyi, - bu, birinci hədəfdir, - əsas məsələ son məhsul ixrac etməkdir. Bunun üçün də bizim aidiyyəti qurumlar, hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi pambıqçılığın sənaye sahəsinə təkan verə biləcək müəssisələri yaratmaq üçün gərək fəal işləsinlər, investorları cəlb etsinlər və güzəştli kreditlər versinlər".

Bütün bunlar pambıq istehsalı və ondan sonrakı mərhələnin, yəni istehsaldan tutmuş, hazır məhsula qədər tamamlanmış dövriyyə sisteminin yaradılması zərurətini ortaya qoyur. Azərbaycanda pambıq istehsalının artırılması ondan son məhsulun əldə olunması istiqamətində işlərin sürətləndirilməsini tələb edir. Problem ondadır ki, mahlıcdan ipliyin, iplikdən parça, ondan isə son məhsul əldə olunması üçün zəruri infrastrukturun, istehsal gücünün olmaması üzündən yığılan pambığın xeyli hissəsi ixrac olunur. Yəni məhsul mahlıc və iplik şəklində satılır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu sahədə bir sıra görüləsi işlər var: "Pambığı yalnız istehsal olunaraq, sonra da mahlıca çevirib ixrac etmək sərfəli deyil. Onun son məhsula çevrilməsi daha vacibdir. Çünki bu həm daha çox gəlir, həm də əməktutumlu sahələrin genişləndirilməsi deməkdir. Pambığın yığılıb mahlıca çevrilməsi zəncirin başlanğıcıdır. Ona görə də istehsal prosesində pambığın alınması və onun xammal kimi ixrac olunması əsas məqsəd deyil. Əsas məqsəd ondan emal olunmuş hazır məhsul kimi ixrac etməkdir. Onda əlavə gəlir daha da artacaq. Bu, həmçinin, ölkənin strateji iqtisadi inkişafında, iqtisadiyyatın şaxələndirilməsində, qeyri-neft sektorunun inkişafında mühüm rol oynayacaq. Görünən odur ki, mahlıcdan ipliyin əldə olunması üçün ölkədə istehsal gücü yetərincə deyil. Bundan əlavə, əldə olunan ipliyi parçaya, parçanı paltara çevirmək imkanı da çox məhduddur. Ona görə də pambıqçılığın sürətlə inkişafı üçün innovativ texnologiyaların tətbiqi vacibdir. Qabaqcıl texnologiyalara əsaslanan yeni emal və istehsal sahələrinin təşkilinə ehtiyac var. Nəzərə almaq lazımdır ki, bu sahədə ciddi rəqabət var. Xüsusən də Azərbaycan bazarında Türkiyə və Çində istehsal olunan toxuculuq sənaye məhsulları üstün çəkiyə malikdir. Ona görə də bu sahədə işlər görülərkən məhsulun rəqabət qabiliyyəti artırılmalıdır. Azərbaycanda istehsal olunan pambığın son məhsula çevrilməsi üçün potensial böyükdür. Sadəcə, bu işin düzgün təşkilinə və sahibkarların təşəbbüs göstərməsinə ehtiyac var. Bunu edə bilsək, hər il milyonlarla vəsait ölkədən xaricə axmaz. Nəzərə almaq lazımdır ki, toxuculuq məhsulları idxalda mühüm çəkiyə malikdir".

> *"Bunu edə bilsək, hər il milyonlarla vəsait ölkədən xaricə axmaz"*

***Vidadi ORDAHALLI***

# Pambıqçılıqda inkişaf həm də çox ciddi sosial nəticələr doğurur - azı 200 mindən çox adam, hər rayonda 10 min şəxsin iş problemi həll olunur...

**"Hazırda 20 rayonda pambıq əkilir və bu rayonlarda 200 minə yaxın insan əməyə cəlb olunub. Yeni pambıqçılığın bir neçə istiqaməti var və hər istiqamət üzrə minlərlə, on minlərlə yeni iş yerləri yaradıldı. Təsəvvür edin ki, 20 rayonda 200 minə yaxın iş yerinin yaradılması nə deməkdir".**



## ***Əli Əlirzayev:*** *"Bu onu göstərir ki, Azərbaycanın inkişaf modeli əməktutumlu sahələrlə bağlıdır"*

Bunu Prezident İlham Əliyev pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə deyib.

Ölkə başçısı bildirib ki, indi rayonların əhalisi orta hesabla təqribən 100-150 min, maksimum 200 min nəfər təşkil edir: "Demək olar ki, hər rayonda orta hesabla 10 min insan ancaq pambıqçılıqla məşğul olur. Təbii ki, bu rayonlarda işsizliklə bağlı problemlər uğurla həll olunur. Eyni zamanda, bizim çox gözəl indikatorumuz var. Bildiyiniz kimi, sosial müdafiəni gücləndirmək üçün biz indi 40 minə yaxın ödənişli ictimai iş yeri yaratmışıq, dövlət tərəfindən maliyyələşir. İş tapa bilməyən vətəndaşlar bu ictimai iş yerlərində işlə təmin olunurlar. İndi pambıq yetişdirən rayonlarda artıq bu işlərə də tələbat azalır. Çünki insanlar gedib pambıqçılıqda daha böyük pul qazanırlar və beləliklə, öz maddi vəziyyətlərini yaxşılaşdırırlar".

Göründüyü kimi, pambıqçılığın inkişafı sosial baxımdan daha faydalıdır. O mənada ki, bunun sayəsində rayonlarda məşğulluğun səviyyəsi artır, çoxlu sayda insan işlə təmin edilir. Nəticədə bölgələrdən paytaxta və digər şəhərlərə iş dalınca gedənlərin sayı azalır. Pambıqçılıq əməktutumlu olduğu üçün daha çox insanın işlə təmin edilməsinə imkan yaradır.

Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, pambıqçılıq digər kənd təsərrüfatı sahələri ilə müqayisədə daha çox əməktutumludur: "Bu onu göstərir ki, Azərbaycanın inkişaf modeli əməktutumlu sahələrlə bağlıdır. Bu o deməkdir ki, daha çox insan əməyinə əsaslanan sahələrin inkişaf etdirilməsi lazımdır. Belə sahələrin başında pambıqçılıq gəlir. Nəticədə daha çox əməkçinin işlə təmin olunmasına şərait yaranır. Bitkiçiliyin bir növü olan buğda istehsalı o qədər də əməktutumlu deyil. Ancaq pambıqçılıq elə bir sahədir ki, orada hərtərəfli əməktutumlu imkanlar olduğuna görə çoxsaylı işçi qüvvəsinə tələbat artır. Bu səbəbdən bölgələrdə çoxsaylı insanın sosial vəziyyəti, güzəranı yaxşılaşır. Nəzərə almaq lazımdır ki, Azərbaycanın pambıq istehsalı ilə bağlı öz ənənələri var. Ancaq burada bir problem var. Problem odur ki, pambıq istehsalı artsa da, onun emal dərəcələri bizdə arzuolunan səviyyədə deyil. Yəni pambıq istehsalını artırmaqla yanaşı, onun emalını və bundan müxtəlif məhsulların istehsalını təşkil etməliyik. Bunu edə bilsək, o zaman daha çox gəlir əldə edəcəyik. Bunun sayəsində daha çox insan işlə təmin ediləcək. Söhbət yüngül sənaye sektorunun əsas lokomotivi olan toxuculuğun inkişafından gedir. Emal prosesini ölkə daxilində inkişaf etdirə bilsək, işçi qüvvəsinə daha çox tələbat olacaq. Ona görə də bu məqamlara diqqət edilməlidir. Çünki bu həm kəndlərin, həm də regionların sosial-iqtisadi inkişafına müsbət təsir edəcək. Əhalinin məşğulluq səviyyəsinin artmasına təsir göstərəcək".

> *"Pambıqçılıq elə bir sahədir ki, orada hərtərəfli əməktutumlu imkanlar olduğuna görə çoxsaylı işçi qüvvəsinə tələbat artır"*

***Vidadi ORDAHALLI***

# Ermənistanın ABŞ sanksiyaları altına düşmək ehtimalı gedərək reallaşır...

**ABŞ və İran arasında ziddiyyətlərin getdikcə dərinləşməsi bu ölkələr arasında savaş ehtimalını da yüksəldir. Hələlik isə ABŞ İran siyasətində istədiyi nəticələrə nail olmaq üçün ona qarşı sanksiyaları genişləndirir. İran prezidenti Həsən Ruhani bildirir ki, ABŞ nüvə anlaşmasından çıxandan, yəni 2019-cu il mayın 8-dən İrana qarşı 93 sanksiya tətbiq edib.**

O qeyd edir ki, İran artıq 40 ildir ABŞ-ın sanksiyaları altındadır:"İndi isə amerikalılar İslam Respublikasını iflic etmək və dağıtmağa cəhd etmək məqsədilə ən ağır məhdudlaşdırıcı tədbirlər tətbiq edirlər". Qeyd edək ki, ABŞ-ın Maliyyə Nazirliyi sonuncu dəfə İrana dekabrın 11-də sanksiya tətbiq edib. Amma sanksiyaların davamlı olacağı da gözlənilir. Bunlardan narahat olan əsas tərəflərdən biri isə işğalçı Ermənistandır. Məsələ burasındadır ki, İrana qarşı sanksiyaların getdikcə genişlənməsi Ermənistana da toxunur. Bunun anonsları indi ABŞ tərəfindən daha açıq elan edilir. ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Huk qeyd edir ki, Vaşinqton İrana qarşı üçüncü ölkələr üçün sanksiyaların tətbiqini istisna etmir və ABŞ tərəfinin qadağan etdiyi hər hansı bir fəaliyyət halında onları tətbiq edəcək:"Biz sanksiyalara məruz qalan hər hansı bir fəaliyyətə qarşı sanksiya tətbiq edirik. Bu bizim siyasətimizdir və bütün hallarda tətbiq olunur, istisna halları yoxdur. Bəzi hallarda İrandan gələn fiziki və hüquqi şəxslərə qarşı birbaşa sanksiyalar tətbiq edirik. Bununla yanaşı, ikinci sanksiyalar da var". Onun sözlərinə görə, bəzi hallarda ABŞ birbaşa İrandan olan fiziki və hüquqi şəxslərə qarşı sanksiyalar tətbiq edir, lakin ikinci dərəcəli sanksiyalar da var: "Birinci və ikinci dərəcəli sanksiyalar siyasəti bir müddətdir mövcuddur və bu siyasətdə həqiqətən heç bir istisna etmirik".

Proseslərin təhlili göstərir ki, üçüncü ölkələr üçün tətbiq edilən sanksiyalar regionda daha çox Ermənistana toxunur. Buna qədər ABŞ artıq belə praktikadan istfiadə edib. Məsələ burasındadır ki, daha əvvəl Ermənistanın iki şirkəti ABŞ Ticarət Nazirliyinin tərtib etdiyi "qara siyahı"ya salınıb. Qadağaya məruz qalan şirkətlər "Markel" və "İrəvan rabitə vasitələri elmi-tədqiqatlar institutu" MMC-lərdir. Ermənistanda da ehtiyat edirlər ki, bu gedişlə daha çox erməni şirkəti ABŞ-ın qəzəbinə tuş gələcək. Bunun əsas səbəblərindən biri ABŞ-da erməni lobbisi və ermənipərəst konqresmenlərdir. Elə bu günlərdə "The Daily Wire" nəşri göstərilən xüsusda olduqca maraqlı bir yazı dərc etmişdi. "Ermənistan Fondu" barədə dərc edilən həmin yazıda qeyd olunurdu: "Ermənistan Fondu" işlərini məktəblər, yollar, xəstəxanalar və ictimai mərkəzlərin tikilməsi kimi infrastruktur layihələri ilə təqdim etsə də, zərərsiz humanitar təşkilat imicindən çox uzaqdır. Fondun filialları arasında ABŞ Konqresində Ermənistan və Dağlıq Qarabağa maliyyənin artırılması üçün kampaniya aparan Amerika Ermənistan Assambleyası və Amerikanın Erməni Milli Komitəsi (ANCA) kimi iki siyasi lobbi də yer alır. Erməni lobbisinin fəaliyyəti Ermənistan və Azərbaycanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsindən uzaqlaşdırmaqdır". Yazıda ABŞ prezidenti Donald Trampa iddia edilən xarici təsir agentləri ilə əlaqələrinə görə impiçment elan olunmasına çağırış edən bir sıra amerikalı konqresmenlərin, əslində özlərinin xarici agentlərlə - Vaşinqtonda İrəvanın maraqları üçün lobbiçilik edən "Ermənistan Fondu" ilə sıx əlaqədə olduğu vurğulanır. Bildirilir ki, onların özləri Trampı ittiham etdikləri maddə üzrə mühakimə olunmalıdır. Eləcə də fond ətrafındakı korrupsiya qalmaqalına və bəzi demokrat senatorların onu dəstəkləməsinə diqqət çəkilərək bildirilir: "Demokratlar "Ermənistan Fondu" və ANCA-nı dəstəkləməklə erməni xalqına heç bir yardım göstərməyib. İndi prezident Trampa qarşı impiçment elan edilməsi üzrə ittihamlar səsləndirəndə onları riyakar adlandırmaq ədalətli olardı. Axı uzun illər boyu korrupsiyaya qurşandığı sübuta yetirilən erməni diasporunun telemarafonlarını dəstəkləyənlər - Adam Şiff, Ceki Şpeyer, Frenk Pallone, Tulsi Qabbard və Bred Şerman kimi demokratlar necə prezidentin iddia edilən korrupsiyasına qarşı çıxa bilərlər?!". Buradan da aydın görünür ki, Ermənistanın, erməni lobbisinin təsiri altında olan konqresmenlər Ağ Evin indiki rəhbərəinə qarşı düşmən mövqedədir. Onların yönəldilməsində Ermənistanın da iştirakı nəzərə alınarsa, Tramp administrasiyasının İranla işbirliyinə görə Ermənistanı sanksiyalara düçar etməsi tamamilə gözləniləndir.



Deməli, Vaşinqton tərəfindən edilən təzyiqlər İrəvanı da dalana diräyəcək. Ermənistan indiyə qədər ABŞ-la, digər yandan da cənub qonşusu ilə münasibətlərini yüksək səviyyədə tutmağa çalışıb. Əvvəlki dövrlərdə ABŞ Ermənistanın müşkül vəziyyətinə anlayış göstərərək onun İranla əlaqələrinə toxunmurdu. Lakin Tramp administrasiyasında artıq hər şey dəyişib.

**İran və Ermənistan arasında ticarət dövriyyəsi 400 milyon dollara yaxındır və bu, Ermənistan üçün böyük rəqəmdir. Amma ABŞ sanksiyaları bu rəqəmləri əhəmiyyətli dərəcədə azaltmaq iqtidarındadır. Erməni iqtisadçı Artak Manukyan baş verənlərin ölkəsi üçün ciddi problem olacağını vurğulayır: "İranla ticarət olduqca yaxşı gedir. Biz, həmçinin, İranın Avrasiya İqtisadi Birliyinə də gəlməsini istəyirik. Bununla ümumi sərhədlərə malik bir tərəfdaşımız peyda olacaq ki, bu da ticarətə əlavə təkan verəcək. Amma ABŞ sanksiyaları vəziyyəti xeyli dəyişir. Biz də ABŞ sanksiyaları altına düşsək, İranla ticarət dövriyyəsi kəskin azalacaq".**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# BMT Baş Məclisinin Xüsusi komitəsindən Ermənistana "Qarabağ zərbəsi"...

**Hərbi-diplomatik, siyasi-iqtisadi müstəvidə Azərbaycanın Ermənistana qarşı təzyiqləri bu ölkənin manevr imkanlarını daha sürətlə məhdudlaşdırmaqdadır. Bunlara paralel olaraq beynəlxalq miqyasda Ermənistanın mövqeyini kəskin ittiham hədəfinə çevirən yeni sənədlərin qəbulu, burada Azərbaycanı ərazi bütövlüyünün ön planda göstərilməsi də ölkəmizin aktivinə yazılan mühüm uğur kimi dəyərləndirilə bilər.**

Bu xüsusda, heç şübhəsiz, daha bir vacib uğur BMT Baş Assambleyasının qəbul etdiyi "Xüsusi komitənin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təşkilatın rolunun gücləndirilməsinə dair məruzəsi" adlı qətnaməsidir.

Qurumun plenar iclasında təsdiq edilən bu qətnamə ərazi bütövlüyünün təsbiq edilməsi məsələsində Azərbaycanın maraqlarına tam cavab verir. Məlumat üçün bildirək ki, Xüsusi Komitə Azərbaycan nümayəndə heyətinin təklifi ilə həmin sənəddə Dağlıq Qarabağ regionunun Azərbaycanın ərazisi olmasını təsdiq edib. Burada daha sonra dövlətlərin güc tətbiq etməklə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinmək öhdəliyi xatırlanır, dövlət suverenliyinin, ərazi bütövlüyünün və başqa dövlətlərin daxili işlərinə qarışmamağın əhəmiyyəti qeyd edilir. Ermənistan nümayəndə heyətinin Xüsusi Komitənin məruzəsindən onu qane etməyən ifadənin çıxarılması və daha sonra üzv dövlətlərin artıq Baş Assambleya qətnaməsinin mətninə dəyişikliklər etmək cəhdləri nəticə verməyib.

Müzakirələrin gedişində heç bir ölkə Ermənistanın təklifini dəstəkləməyib, Baş Assambleya tərəfindən qəbul edilmiş qətnamə isə BMT üzvü olan bütün dövlətlər tərəfindən, Ermənistan nümayəndə heyəti istisna olmaqla, təsdiq edilib. Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ilin aprel-noyabr aylarında Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalını pisləyən, erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün şərait yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin mart ayında BMT Baş Assambleyası beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə edilmiş mövqeyini bir daha təsdiq edən 62/243 nömrəli qətnamə qəbul edib. BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri əsasında müxtəlif ölkələrin qanunverici orqanları və beynəlxalq təşkilatlar işğalçı erməni qüvvələrinin Azərbaycandan çıxarılmasını tələb edən onlarca digər qətnamə qəbul edib. Bunun ardınca qəbul edilən yeni sənəd də Azərbaycanın Ermənistan üzərində növbəti diplomatik qələbəsini nümayiş etdirir.

Elə Ermənistanın "1in.am" portalı da yazır ki, Azərbaycan diplomatik sahədə kifayət qədər çeviklik nümayiş etdirir. Portal "Madrid prinsipləri"nin yenidən aktivləşməsi, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının danışıqlar prosesinə maraqlı tərəf kimi qoşulması istiqamətində atılan addımları buna əyani sübut kimi göstərir. Baş verənlərə bağlı "1in.am" yazır: "Azərbaycan Qarabağ məsələsində diplomatik fəallığını əhəmiyyətli dərəcədə artırıb və məqsədinə bu yolla da nail olmağa çalışır. Azərbaycanın televiziya kanallarından birinə müsahibə verən xarici işlər naziri Elmar Məmmədyarov Qarabağ tənzimlənməsindən danışarkən maraqlı bir məqama toxunub: "Biz nəticəsində "Madrid prinsipləri" formalaşan Praqa prosesini başlatdıq və hazırda prosesin, həmçinin vasitəçi həmsədrlərin bəyanatlarının əsasında həmin prinsiplər dayanır". Şübhəsiz, Məmmədyarov aprel müharibəsindən və Ermənistandakı "məxməri inqilab"dan sonra erməni siyasətinin dalana girdiyini də burada ifadə edir. Praqa prosesi 2004-cü ildə, İlham Əliyev yenicə hakimiyyətə gəldiyi zaman başlayıb. Əliyev həmin dövrdəki Ermənistan hakimiyyətini itələyib tələyə salmaq və nəhayət, 2007-ci ilin dekabrında danışıqların əsası kimi, "Madrid prinsipləri"nin razılaşdırılmasına nail olmaq üçün bu vəziyyətdən məharətlə istifadə edə bildi. Bu prinsiplər Azərbaycanın istədiklərini - ərazilərin qaytarılmasını və qaçqınların geri dönməsini nəzərdə tuturdu, lakin Dağlıq Qarabağın statusu ilə bağlı yekun heç nə yox idi.

Bu proses bugünkü reallıqlar fonunda Ermənistanı Praqadan Madridədək gətirən, sonra danışıqları "Madrid prinsipləri" əsasında tərtib olunmuş Kazan planı üzrə aparan keçmiş hakimiyyət nümayəndələrinin mövcud iqtidarı təhdid, Dağlıq Qarabağı verən qüvvə elan etdiyi bir vaxtda diqqətçəkəndir. Problem onda deyil ki, əvvəlki mövqe və addımlardan asılı olmayaraq, kimsə Dağlıq Qarabağın gələcəyilə bağlı narahat ola bilər. Problem ondadır ki, bu narahatlığa paralel olaraq, insanlar öz hakimiyyətlərinin apardığı siyasətə cəsarətli, birbaşa, səmimi qiymət verə bilmirlər. Belə olsaydı, cəmiyyət təsbit edərdi ki, bu insanlar öz səhvlərini etiraf edərək, müəyyən dərəcədə əsaslandırılmamış və ya faktlarla təsdiq olunmamış narahatlıqlarını ifadə etmələrinə baxmayaraq, Dağlıq Qarabağ məsələsində səmimi davranırlar. Artıq aydın olur ki, burada Ermənistanda bəzi qüvvələrin öz problemini Dağlıq Qarabağ hesabına həll etmək üçün sadə və çox yaxşı hesablanmış bir cəhd var. Və bu həll cəhdi Ermənistanın ictimai və dövlət mövqelərini zəiflədən, Dağlıq Qarabağın "seçki prosesinə" yönələn metodologiya və addımlar hesabına olmasaydı, əlbəttə, sadəcə həmin insanların problemi olardı. Amma vəziyyət dəyişir və Azərbaycan Ermənistan daxilində Qarabağ ziddiyyətlərindən məharətlə istifadə edir. Ermənistanın hərbi araşdırmalar mərkəzinin elmi-araşdırma departamentinin rəhbəri, hərbi ekspert Leonid Nersisyan da bunu təsdiq edir. Hərbi ekspert hakimiyyətdəki etibarlı mənbələrə istinadla Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı razılığa gəldiklərini iddia edir: "Bir sıra məsələlər üzrə tərəflər ümumi razılığa gəliblər. Ancaq mən detalları açıqlaya bilmərəm". Bütün bunlar Qarabağ məsələsində proseslərin məhz Azərbaycanın istədiyi ssenari üzrə inkişaf etdiyini aydın nümayiş etdirir.

Bununla yanaşı, yuxarıda qeyd olunduğu kimi, erməni tərəfini narahat edən əsas məqamlardan biri də Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə bağlıdır. Bu fonda Fransanın Azərbaycandakı səfiri Zakari Qrossun azərbaycanlı icmasının sədri Tural Gəncəliyevlə görüşməsi Ermənistanda ciddi narahatlıq yaradıb. Erməniləri daha çox görüş zamanı T. Gəncəliyevin icmalar arasında danışıqlarla bağlı yanaşmasının Fransa səfirində yaxşı təəssürat oyatdığı məyus edib.

Görüşə münasibət bildirən erməni politoloq Qrant Məlik-Şahnazaryan Fransanın Ermənistanın yaxın müttəfiqi olmasına diqqət çəkərək bildirir: "Fransanın Azərbaycandakı səfiri Zakari Qross əvvəlcə Tural Gəncəliyevlə görüşür, sonra isə onun "Ümid edirəm ki, növbəti görüş Dağlıq Qarabağda olacaq" tvitini paylaşaraq, Tural Gəncəliyevin yanaşmalarının onda yaxşı təəssürat oyatdığını yazır. Fransa, sən də?". Daha sonra o, bu mənzərənin baş nazir Nikol Paşinyan və xarici işlər naziri Zöhrab Mnatsakanyanın yürütdüyü xarici siyasət nəticəsində yarandığını, bu siyasət nəticəsində Ermənistanın heç bir müttəfiqinin qalmadığını, belə xəbərlərin artıq təəccübə səbəb olmadığını vurğulayıb. Ermənistanın diplomatik müdafiəsinin məhv edildiyini bildirən erməni politoloq T.Gəncəliyevin rəhbərlik etdiyi Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının getdikcə siyasi amilə çevrildiyini də qeyd edib. Ümumiyyətlə, bu ilin əvvəlində T. Gəncəliyevin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri seçilməsindən sonra icmanın xarici əlaqələrində canlanma hiss olunmaqdadır. Belə ki, il ərzində T.Gəncəliyevin erməni diasporunun aktiv olduğu Los-Ancelesə səfər etməsi, orada bir sıra görüşlər keçirərək erməni işğalından danışması, bundan başqa, icma sədrinin Belçikada Avropa Parlamentinin deputatları ilə təmaslar qurması Ermənistanda müzakirə mövzusuna çevrilməkdədir. Aparılan müzakirələr zamanı icma sədrinin fəaliyyətinin Ermənistanda böyük narahatlıq yaratdığı aydın şəkildə hiss olunmaqdadır. Baş verənləri erməni tərəfi özü üçün ciddi məğlubiyyət sayır.

Aydındır ki, Ermənistan diplomatik gedişlərdən müvafiq nəticələr çıxarmasa, məsələnin hərbi həlli də gündəmə gələcək. Diplomatik sahədə olduğu kimi, hərbi müstəvidə də Azərbaycan kifayət qədər üstünlüyə malikdir. Bunu Beynəlxalq Böhran Qrupu "Dağlıq Qarabağ məsələsini dalandan çıxarma" adlı yeni hesabatında da xüsusi olaraq qeyd edir. Hesabatda vurğulanır ki, Dağlıq Qarabağ regionu ilə bağlı Ermənistanla Azərbaycan arasında sülh prosesində açılmış dar nəfəslik yenidən bağlana bilər. Qeyd olunur ki, 2019-cu ilin əvvəlində münaqişənin həlli istiqamətində danışıqlarda irəliləyiş hiss olunub: "Ermənistanın yeni hökuməti kompromisli həlli axtarmağa hazır olduğunu bildirmişdi. Bakının da münaqişənin həlli yollarının axtarışı üçün daha açıq olduğu göründü. Aprel hadisələrindən sonra yenilənmiş diplomatik münasibətlər itkilərin azalmasına və danışıqlar üçün daha münasib mühitin yaranmasına gətirib çıxardı. Azərbaycan və Ermənistan hökumətləri təmas xəttində humanitar layihələrin həyata keçirilməsinə razılıq verdi, jurnalistlərin qarşılıqlı səfərlərinə və həbs olunmuş şəxslərin yaxınlarına baş çəkməsinə icazə verildi".

Qeyd olunur ki, buna baxmayaraq, yeni yanaşma danışıqların yenilənməsinə yol açmayıb. Hesabat müəlliflərinin fikrincə, illər mövqeləri sərtləşdirib. Bildirilir ki, son aylar Ermənistan-Azərbaycan münasibətləri tərəflərdən birinin digərinin açıqlamasını təxribatçı hesab etməsindən sonra daha da soyuyub. Hər iki tərəf 2019-cu ildə qurulmuş bünövrəyə istinad etməsə, status-quo vəziyyət uzun çəkməyə bilər. O da qeyd olunur ki, birbaşa danışıqlar özü ilə risqlər də gətirir, lakin illər keçir və həll potensialını daha çox əlçatmaz edir, vaxt uzandıqca müharibə risqi daha da artır:"Danışıqlar masası arxasına qayıtmaq çətindir, lakin bu, Azərbaycan və Ermənistanın münaqişəni ölü nöqtədən çıxarması üçün yeganə yoldur". Bildirilir ki, bunlar olmasa müharibə qaçılmazdır və ötən illər ərzində Ermənistanla müqayisədə Azərbaycan hərbi cəhətdən daha çox güclənib.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Rusiyanın erməni əsilli ziyalıları məhbus Köçəryanın müdafiəsinə qalxdı

**Rusiyanın Ermənistanda gelən proseslərdən razı qalmadığı, baş nazir Nikol Paşinyanın fəaliyyətindən ciddi əndişə duyduğu heç kimə sirr deyil. Elə bundan irəli gəlir ki, Moskva Paşinyana münasibətdə məsafəli davranır. Digər tərəfdən hadisələrin inkişaf axarı göstərir ki, Kreml özünə yaxın saydığı şəxslərin Paşinyan tərəfindən zərərsizləşdlirilməsinə də daha dözmək niyyətində deyil.**



Söhbət ilk olaraq Kremlin Ermənistanda əsas adamları sayılan eks-prezidentlər Robert Köçəryan və Serj Sarksiyandan gedir.

Xatırladaq ki, daha əvvəl Rusiya Robert Köçəryanın həbsə atılmasının onun üçün qəbuledilməz olduğunu bildirmişdi. Amma Paşinyan Kremldən gələn siqnallara ciddi yanaşmadı. Əksinə, Kremlin yaxını sayılan şəxslərə qarşı hücumu artırdı. Elə bu da onun Rusiya ilə münasibətləri daha da pisləşdirməsinə gətirib çıxardı. Amma görünən budur ki, Kreml baş verənləri cavabsız qoymaq niyyətində deyil və bu fonda Paşinyana daha bir xəbərdarlıq ünvanlanıb. Belə ki, Rusiyanın erməni əsilli mədəniyyət xadimləri Robert Köçəryanın azadlığa buraxılması bəyanatı ilə çıxış ediblər. Bəyanatda bildirilir: "Biz hüquqi qiymət vermirik, hakim və ya arbitr rolunu da oynamırıq. Bizim hər birimiz öz işimizlə məşğuluq. Biz məhkəmə çəkişməsi tərəfi deyilik. Lakin biz ermənilərik, erməni köklərimiz var və bizi Ermənistanın mənəvi-psixoloji atmosferi qayğılandırır. Bizi inandıra bilmədilər ki, Köçəryan azadlığa çıxarsa, günahı sübuta yetirilərsə, məhkəmədən qaça bilər". Onlar Robert Köçəryanı dövlət xadimi olaraq qiymətləndirdiklərini bəyan ediblər: "Bir çoxumuz onu şəxsən tanıyırıq. Baş verənlərə laqeyd baxa bilmirik. Hesab edirik ki, prezidentin hazırkı statusu Ermənistanın müsbət imicinə, ölkədə ictimai atmosferin yaxşılaşmasına öz töhfəsini vermir. Biz gələcək naminə həmrəyliyin bərqərar olması istiqamətində addım atmağı təklif edirik. Baş nazirdən xahiş edirik ki, Ermənistan Respublikasının ikinci prezidenti Robert Köçəryana qarşı qətimkan tədbiri dəyişdirilsin".

Xatırladaq ki, müraciəti Rusiya Film və Televiziya İstehsalçıları Birliyinin İdarə Heyətinin sədri Aleksandr Akopov, NTV-nin aparıcısı, Moskva Şəhər Dumasının deputatı Roman Babayan, məşhur aparıcı Tina Kandelaki, "Russia Today"in baş redaktoru Marqarita Simonyan, "Mosfilm" konserninin idarə heyətinin sədri Karen Şahnazarov, aktrisa, televiziya aparıcısı, yazıçı Sati Spivakova, musiqiçi, bəstəkar və rejissor Stas Namin, Rusiyanın xalq artisti Dmitri Xaratyan və başqaları imzalayıb. Bu şəxslərin böyük əksəriyyəti Vldaimir Putinin təbliğatçısı kimi tanınır. Elə bunu nəzərə alan ekspertlər bildirir ki, əslində, bu hal Putindən Paşinyana Köçəryanla bağlı növbəti xəbərdarlıqdır. Maraqlıdır ki, məhz belə bir vaxtda "Daşnaktsütyun" partiyasının üzvü Aqvan Vardanyan bu xüsusda bildirib:"Bir müddət əvvəl yüzə yaxın ictimai, siyasi, mədəni, idman dairəsinin nümayəndələri Köçəryanı dəstəkləyən bəyanat vermişdilər. Onlar hakimiyyəti şəxsi ambisiyalardan güclü olmağa, məhkəmə sisteminə təzyiqləri dayandırmağa çağırıblar. Həmçinin, Köçəryanın sərbəst buraxılmasının sosial həmrəyliyə təkan verəcəyinə ümid etdiklərini də söyləyiblər". Onun sözlərinə görə, artıq 60 minə yaxın şəxs bu bəyanatı imzalasa da, hakimiyyətin mövqeyi dəyişməyib:"Perspektivsiz siyasət davam edir. Bu gün ictimai həyatda gərginliyin səbəbi 1 mart işinin inkişafı, Köçəryanın həbsidir. Aydındır ki, Köçəryana verilən ittihamın 10 nəfərin ölüm səbəblərinin açılması ilə heç bir əlaqəsi yoxdur".

Vardanyanın fikrincə, Köçəryanın həbsdə saxlanması dövlət üçün zərərlidir:"Köçəryanın həbsi nə dövlətə, nə də vətəndaşlara nəsə verir. Sabiq prezident barəsində görülən həbs qətimkan tədbirini dəyişdirmək lazımdır. Bu məsələ ictimai tələbə çevrilməlidir. 60 min imza nəzərə alınaraq, Köçəryanın həbsdən azad edilməsi məqsədini daşıyan komissiya yaradıldı". Ekspertlər isə bildirir ki, Rusiyanın dəstəyilə azadlığa çıxmaq istəyən Köçəryanın əsas missiyası Paşinyanın devrilməsi olacaq. Bununla Kreml Paşinyandan yaxa qurtarmağı düşünür. Artıq bu fonda o da məlumdur ki, Robert Köçəryan yeni partiya yaratmağa da hazırlaşır. Köçəryan iddia edir ki, artıq Ermənistandakı siyasi proseslər yekunda növbədənkənar seçkilərlə başa çatacaq. O, artıq cəmiyyətin reallığı olduğu kimi qəbul etdiyini bildirib:"Bu, Paşinyanın populyarlığının sürətlə itdiyini və hər şeyin növbədənkənar seçki ilə bitəcəyini əminliklə deməyə əsas verir. Bunun gələn il baş verməsi ehtimalı həddən artıq yüksəkdir və hər şey müxalifətin qətiyyətindən asılıdır". Hesab edilir ki, Köçəryanın siyasi fəaliyyətinə Rusiyadan hərtərəfli dəstək olacaq. Eyni zamanda "Qarabağ klanı"nın böyük maliyyə vəsaiti yeni partiyanın fəaliyyətinə əlavə imkanlar yaradacaq. "İrs" partiyasının lideri Raffi Ovannisyan da hadisələrin məhz bu istiqamətdə inkişaf edəcəyini düşünür. Onun fikrincə, Paşinyana qarşı sistemin müqavimətini Rusiyanın dəstəyilə Köçəryanın idarə etməsi aydın müşahidə olunur: Bundan irəli gəlir ki, hakimiyyət və müxalifət cəbhəsində qruplaşma prosesi çox qəti şəkildə baş verir. Eyni zamanda, xarici siyasət meyllərində də dəyişiklik müşahidə etmək olar. Xüsusən də Rusiya cəbhəsində. Düzdür, Rusiya geniş bir anlayışdır və Rusiya hökumətindəki fərqli qruplar öz oyunlarını oynaya bilərlər. Amma onların stavka etdyiyi Ermənistanın eks prezidentləri Robert Köçəryan və Serj Sarkisyandır. Bu səbəbdəndir ki, Serj Sarkisyanın partiyası Paşinyanı növbədənkənar seçkilərə çağırmaq fürsətini əldən vermir. Paşinyan isə Sarkisyanı da həbsə atmaqla zərərsizləşdirməyi düşünür. Amma bu, Paşinyanın Rusiya ilə ziddiyyətini daha da dərinləşdirəcək".

Yeri gəlmişkən qeyd edək ki, külli miqdarda dövlət vəsaitini mənisəməkdə ittiham olunan Serj Sarkisyanın əmlakına həbs qoyulub. Ermənistan Xüsusi İstintaq Xidmətinin sözçüsü Marina Ohancanyan bildirib:"Sarkisyanın əmlakına və cinayət işində adı keçən "Flash" kompaniyasının rəhbəri Barseq Beqlaryanın mülklərinə həbs qoyulması barədə qərar verilib".

Bundan əvvəl Ermənistanın Xüsusi İstintaq Xidməti Sarkisyanı 1 milyon dollardan çox pul oğurlamaqda ittiham edib. Keçmiş dövlət başçısı özünə qarşı bu işi siyasi təqib hesab edib. İstintaq materiallarına əsasən, qanun pozuntuları kəndlilərə əlverişli qiymətlərlə dizel yanacağının satılmasını nəzərdə tutan hökumət proqramı çərçivəsində törədilib. Belə ki,Sarkisyan öz tabeliyində olanlara dizel yanacağı tədarükçüsü kimi "Flash" kompaniyasını seçməyi tapşırıb. Halbuki, "Masxur" adlı digər şirkət daha uyğun qiymətlərlə öz xidmətlərini təklif edibmiş. Hər halda, baş verənlər Sarkisyanın da həbsini istisna etmir. Amma görünən budur ki, Moskva da Ermənistanda yaşananlara artıq seyrçi qalmaq istəmir.

***Ramil QULİYEV***

# Kənd təsərrüfatına dövlət dəstəyinin bütün əsas komponentlərinin Azərbaycan modeli - Prezidentin son müşavirəsinə baxış...

**Pambıqçılıq Azərbaycanda ənənəvi sahələrdən sayılsa da, SSRİ-nin dağılmasından sonra bir sıra sahələr kimi, pambıqçılıq da tənəzzüllə üzləşməli oldu. Azərbaycan müstəqillik qazandıqdan sonra uzun illər ərzində pambıqçılıq diqqətdən kənarda qaldı.**

Nəticədə pambıqçılıqda ciddi tənəzzül yaşandı. Bütövlükdə, nəinki pambıqçılıqda, kənd təsərrüfatının digər sektorlarında da bənzər vəziyyət yarandı. Ümumən, kənd təsərrüfatı dağılmış vəziyyətə salınmışdı, ölkədə özbaşınalıq hökm sürürdü.

Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra bu prosesin qarşısını aldı. Kənd təsərrüfatının inkişafı ilə bağlı dövlətin qayğısı artmağa başladı. 2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi ilə ölkədə kənd təsərrüfatının inkişafı yeni mərhələyə qədəm qoydu. Məhz Prezident İlham Əliyev tərəfindən ölkədə qeyri-neft sektorunun inkişafı strategiyasının həyata keçirilməsinə başlanması ilə pambıqçılıq da prioritet sahələr sırasına keçdi. Artıq bir neçə ildir dövlət tərəfindən pambıqçılığın inkişafına, bu sahə üzrə fəaliyyət göstərən sahibkarlara, fermerlərə hərtərəfli dəstək verilir. Prezident mütəmadi olaraq pambıqçılığa həsr olunmuş müşavirələr keçirir, problemləri dinləyir, lazımi göstəriş və tapşırıqlarını verir. Məhz bunun nəticəsində son illər Azərbaycanda pambıq istehsalı əhəmiyyətli dərəcədə artıb.

Məlum olduğu kimi, pambıqçılıqla bağlı sonuncu müşavirədə Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət tərəfindən göstərilən diqqətlə əlaqədar bir sıra məqamlara toxundu. Dövlət başçısı Azərbaycanda sağlam iqtisadi, investisiya mühitinin yaradılması, kənd təsərrüfatının ənənəvi sahələrinin dirçəldilməsi istiqamətində həyata keçirilən məqsədyönlü siyasətdən söz açaraq, pambıqçılığın inkişafına xüsusi diqqət yetirməyin vacibliyini bir daha vurğuladı: "Biz, demək olar ki, Azərbaycanda pambıqçılığı dirçəltmişik, bunu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq, bu vəzifələri icra etmişik. Son illər ərzində biz kənd təsərrüfatının inkişafı, xüsusilə ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük nailiyyətlərə imza atmışıq. Bizim son illər ərzində əsas vəzifəmiz ərzaq təhlükəsizliyi məsələləri idi. Çünki sovet vaxtında Azərbaycanda pambıq, üzüm, meyvə-tərəvəz istehsal olunurdu, ancaq əsas ərzaq məhsulları başqa respublikalardan gəlirdi. Ona görə biz, ilk növbədə, daxili tələbatı yerli məhsullarla təmin etmək üçün işləyirdik, çalışırdıq, investisiyalar qoyulurdu. Hesab edirəm ki, ərzaq təhlükəsizliyi məsələlərinin həllində çox ciddi uğurlara nail olmuşuq".

Prezident qeyd edib ki, xüsusilə müstəqilliyi yeni qazanmış ölkələrdə dövlət müdaxiləsi zəruridir: "Əgər dövlət siyasəti olmasaydı, bu gün biz bu uğurlara nail ola bilməzdik. Əgər dövlət energetika, nəqliyyat, infrastruktur, kənd təsərrüfatına dəstək, sənayenin inkişafı sahələrində öz ciddi addımlarını atmasaydı, öz siyasətini ortaya qoymasaydı, bu gün hansı uğurlardan söhbət gedə bilərdi?! İnfrastruktura özəl sektor pul qoya bilərmi? Əlbəttə ki, yox. Üzümçülüyə, hansı ki, fermer gəliri ən azı 7 il gözləməlidir, dövlət dəstəyi olmadan kimsə vəsait qoya bilərmi? Pambıqtəmizləmə zavodlarının yenidən qurulmasına dövlət dəstəyi olmadan kim vəsait qoyar? Biz indi pambıq tədarükü üçün ən müasir texnika alırıq, - Amerika istehsalı olan "John Deere" kombaynları, - 400-dən çox kombayn almışıq. Texnikanın alınmasına, bütövlükdə, 500 milyon manatdan çox vəsait xərcləmişik. Hansı özəl şirkət bunu öz üzərinə götürə bilər? Ona görə görəndə ki, biz pambıqçılıq sahəsini də itiririk və bu, böyük problemlərə gətirib çıxarar, mən dərhal göstəriş verdim, bu məsələ ilə özüm məşğul olmağa başladım. Gördüm ki, bu sahədə bazar iqtisadiyyatı prinsipləri işləmir, çox ciddi tədbirlər planı tutuldu və 2017-2020-ci illəri əhatə edən Dövlət Proqramı qəbul olundu. Biz Dövlət Proqramı əsasında pambıqçılığı dörd il ərzində demək olar ki, dirçəltdik və ən yüksək nəticələrə çatdıq".

Ölkə başçısı qeyd edib ki, dövlət dəstəyi nəticəsində son üç il ərzində 15 min 700 texnika alınıb: "Bu, bizə imkan verdi ki, pambığın 87 faizini texnika ilə yığa bilək və əl əməyi aşağı düşdü. Ancaq bununla paralel olaraq, biz, əlbəttə ki, pambıqçılığı əməktutumlu sahə kimi inkişaf etdirərkən, ilk növbədə, məşğulluqla bağlı olan problemləri diqqət mərkəzində saxlamışıq və buna nail olmuşuq.

Suvarma tədbirləri. 100 min hektarda suvarma tədbirləri görülmüşdür. Hamımız yaxşı bilirik ki, bu il çox quraqlıq il olmuşdur və tarixdə bu dərəcədə quraqlıq heç birimizin yadında deyil. Ancaq buna baxmayaraq, pambıq tarlalarında su təminatı təşkil edilmişdir.

Pambıqla məşğul olan fermerlərə güzəştli kreditlər verildi. Pambıqtəmizləmə zavodlarında təmir-bərpa, sazlama işləri aparıldı. Eyni zamanda, Ucar rayonunda müasir texnologiya əsasında yeni pambıqtəmizləmə zavodu inşa edilmişdir. 2016-cı ildən pambığın hər kiloqramına görə istehsalçılara dövlət tərəfindən 10 qəpik subsidiya verilməyə başlanmışdır. 2015-ci ildə pambığın satınalma qiyməti 41 qəpik, 2016-2017-ci illərdə 50 qəpik idisə, 2018-ci ildən bu rəqəm 65 qəpiyə qaldırıldı və bu da çox həvəsləndirici amildir. Pestisidlər güzəştlə verilməyə başlanmışdır. Hər hektara güzəştlər 10 manatdan 50 manata qaldırıldı. Gübrələr üçün güzəştlər isə 100 manatdan 150 manata qaldırıldı. Bütün bu addımlar dövlətin bu sahəyə göstərdiyi diqqətin və önəmin təzahürüdür. Təsadüfi deyil ki, nəticə də özünü qısa müddət ərzində büruzə verdi".



Ölkə başçısı onu da qeyd edib ki, dörd il ərzində görülmüş kompleks tədbirlər nəticəsində pambıqçılıq dirçəldi: "2015-ci ildə, - o ildə ki, artıq mən bu sahəni itirdiyimizi gördüm, - 18 min hektardan 35 min ton pambıq tədarük edilmişdir. Hər hektardan məhsuldarlıq 18,8 sentner idi. 2016-cı ildə artıq 51 min hektarda pambıq əkildi və 89 min ton pambıq tədarük edildi".

Göründüyü kimi, Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı uğurlu dövlət modeli öz effektini verməkdədir. Bu model çoxşaxəli olmaqla yanaşı, həm də çox səmərəli bir modeldir. O mənada ki, kompleks qayğı sayəsində aqrar sektorun bütün sahələrində artım qeydə alınıb. Modelin uğurlu olmasının göstəricisidir ki, pambıq istehsalı ötən 4 il ərzində 35 min tondan 294 min tona çatıb. Təbii ki, dövlətin yuxarıda sadalanan tədbirləri olmasaydı, kənd təsərrüfatının əməktutumlu sahələrindən olan pambıqçılıq belə dinamik inkişaf etməzdi. Bütün bunlar onu göstərir ki, kənd təsərrüfatına dövlət dəstəyinin Azərbaycan modeli özünü doğrultdu.

***Vidadi ORDAHALLI***

# Özəl məhkəmə ekspertlərinin fəaliyyəti Ədliyyə Nazirliyi tərəfindən tənzimlənəcək...

**Dekabrın 20-də Ədliyyə Nazirliyində "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanuna və Prezident İlham Əliyevin 18 dekabr 2018-ci il tarixli Fərmanına əsasən, gələn il martın 1-dən fəaliyyətə başlayacaq özəl məhkəmə eksperti institutuna həsr edilmiş tədbir keçirildi.**

Dəyirmi masa formatında baş tutan tədbirdə çox faydalı və maraqlı müzakirə aparıldı. Tədbirdə müxtəlif spektrləri təmsil edən peşə sahibləri ilə yanaşı, media mənsubları da təmsil olunurdu.

Qeyd edək ki, imzalanan yeni fərmanla "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də edilən dəyişikliyə əsasən, Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri sırasına özəl məhkəmə eksperti şəhadətnaməsini vermək, Məhkəmə Ekspertlərinin Reyestrini, Məhkəmə Ekspertizası Tədqiqat Metodlarının Dövlət Reyestrini və Məhkəmə Ekspertizasının Elmi-Metodiki Fondunu aparmaq daxil edilib.

Müzakirələrin nəticəsində məlum oldu ki, indiyə qədər Ədliyyə Nazirliyi məhkəmə ekspertizalarının keçirilməsini təşkil edibsə, özəl məhkəmə ekspertlərinin yaranması ilə əlaqədar Ədliyyə Nazirliyinin bu sahədə də vəzifəsi konkretləşib. Nazirlik məhz tabeliyində olan məhkəmə ekspertizası idarəsində məhkəmə ekspertizası fəaliyyətini təşkil edəcək. Müvafiq olaraq Ədliyyə Nazirliyinin vəzifələri sırasına tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinin və özəl məhkəmə ekspertlərinin "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunun tələblərinə riayət etməsinə nəzarət etmək və tabeliyində olan məhkəmə ekspertizası idarəsinin ekspertlərinə və özəl məhkəmə ekspertlərinə məhkəmə eksperti şəhadətnamələri vermək, qanunla müəyyən edilmiş hallarda həmin şəhadətnamələri ləğv etmək daxil edilib. Fərmana əsasən, bu dəyişikliklər 2020-ci il martın 1-dən qüvvəyə minir.

Tədbirdə çıxış edən Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr İdarəsinin rəisi Aynur Sabitova bildirdi ki, Prezident İlham Əliyevin 3 aprel 2019-cu il tarixli Fərmanı ilə məhkəmə-hüquq sistemində islahatlara başlanıb, qanun paketləri qəbul edilib. O bu sırada özəl məhkəmə eksperti institutunun yaradılmasını qeyd edib. Eyni zamanda, məhkəmələrdə media ilə iş üzrə spiker hakimlərin təyin edilməsinin önəmli olduğunu vurğulayıb və tədbirdə həmin spiker hakimlərin iştirak etdiyini nəzərə çatdırıb.

Sonra söz Vəkillər Kollegiyasının sədri Anar Bağırova verildi. Anar Bağırov dövlət başçısının 3 aprel 2019-cu il tarixli Fərmanının əhəmiyyətindən danışdı və bunun onların peşəsi üçün də xüsusi əhəmiyyət kəsb etdiyini dedi və bütün vəkillərin adından ölkə başçısına minnətdarlığını ifadə etdi. A.Bağırov dedi ki, Nazirlər Kabinetinə müvafiq tapşırıq verilib, akt hazırlanır: "İlk dəfə büdcədən dövlət hesabına hüquqi yardımla bağlı ayrılan vəsait Vəkillər Kollegiyasının hesabına köçürüləcək. Bundan əvvəl bu sahədə süründürməçilik vardı. Bununla bağlı gələn aydan Vəkillər Kollegiyasının nəzdində Hüquqi Yardım və Təlim Mərkəzi fəaliyyətə başlayacaq".

A.Bağırov qeyd etdi ki, indiyə qədər vəkillərin ekspertiza üçün müraciət etmək hüququ yox idi: "Artıq qanunvericiliyə edilən dəyişikliyə əsasən, vəkil bilavasitə Məhkəmə Ekspertiza Mərkəzi, yaxud gələcəkdə fəaliyyət göstərəcək özəl məhkəmə eksperti ilə müqavilə bağlamalı və ekspertiza üçün müraciət etməlidir".

Sonra müstəqil ekspertizaların hansı qaydada fəaliyyət göstərəcəyi ilə bağlı Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəisi Fuad Cavadov geniş məlumat verdi. Onun sözlərinə görə, bundan əvvəl Mülki və İnzibati Prosessual məcəllələrdə ekspertiza aparılması müddəti göstərilməmişdi: "Artıq bu müddət İnzibati Prosessual Məcəlləyə əsaslanacaq. Eyni zamanda, ekspertiza müddəti materialın ekspertizaya daxil olduğu müddətdən başlayacaq".



Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəisi Fuad Cavadov özəl məhkəmə ekspertizası ilə bağlı bir sıra normativ aktların hazırlandığını nəzərə çatdırdı: "Ekspertizanın icra müddəti ilə bağlı əvvəllər yubanmalar olurdu. Yeni dəyişikliyə görə, ekspertiza müddəti iş ekspertizaya təqdim olunan gündən hesablanır. Ekspert 5 gün müddətində nəticələr barədə məhkəməyə vəsatət qaldırmalıdır. Məhkəmə də 3 gün ərzində ekspertiza müəssisəsinə vəsatəti təmin edib-etməyəcəyi barədə məlumat verməlidir. Vəsatət təmin olunana qədər icra dayandırılır. Vəsatət təmin olunandan sonra icraya başlana bilər. Bu da məhkəmə ekspertizası sahəsində bir inqilabdır. Həmçinin, özəl ekspertlərin də səlahiyyətləri çərçivəsində həyata keçirdikləri ekspertiza ilə bağlı qanunda nəzərdə tutulmuş hüquqları ilə yanaşı, məsuliyyətləri də var".

Onun sözlərinə görə, dövlət, yaxud özəl ekspertiza təyin etmək hüququ müraciət edən şəxsin özü tərəfindən müəyyən edilə bilər.

Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin rəis müavini Elçin Nəsibov özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslərə dair tələblərdən danışdı Onun çıxışından sonra belə qənaətə gəlindi ki, məhkəmə proseslərində ekspertlər qismində alternativ seçimin olması ədalətin təmin edilməsinə imkan yaradacaq.

Tədbirdə iştirak edən Ədliyyə Nazirliyi yanında İctimai Şuranın üzvləri Əliməmməd Nuriyev və Sahib Məmmədov da özəl ekspertlərlə bağlı bir sıra suallar verdilər. Əsasən də özəl ekspertlərin fəaliyyətinin necə tənzimlənəcəyi ilə bağlı verilən suallardan sonra aydın oldu ki, bununla bağlı lisenziyalar veriləcək. Verilən lisenziyaların müddəti birdəfəlik olsa da, hər 5 ildən bir özəl ekspertlər attestasiyadan keçməlidirlər. Media mənsublarının verdiyi suallara səslənən cavablardan bəlli oldu ki, bu sahənin adı özəl olsa da, nəzarətdən kənarda qalmayacaq və həmin təsisatların şəffaf fəaliyyətinə ciddi nəzarət olunacaq. Hətta müqayisə üçün özəl notariat kontorlarının fəaliyyətinin təmzimlənməsi də göstərildi. Qeyd olundu ki, həmin qurumlar da kifayət qədər ciddi və məsuliyyət tələb edən işlərlə məşğul olurlar, amma müstəqil olmaları buna mane olmur. Yekunda belə qərara gəlindi ki, bu mövzuda təmaslar artmalı və geniş təbliğat aparılmalıdır.

***Məhəmmədəli QƏRİBLİ***

**"Üç rayonda isə məhsuldarlıq 20 sentnerdən azdır. Bax, bu rayonlarda çox ciddi təhlil aparılmalıdır, nə üçün, bunun səbəbi nədir? Bunun səbəbi olmalıdır". Bu fikirləri Prezident İlham Əliyev dekabrın 19-da pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə söyləyib.**

# Hektardan heç 20 sentner də pambıq yığa bilməyən üç rayonumuz - kadr yarıtmazlığı, ya təbii şəraitsizlik...



## *Nicat Nəsirli: "Həmin rayonlarda pambığın hamısı heç də əkinə yararlı ərazidə əkilməyib"*

Prezident müşavirədə çıxışı zamanı bildirib ki, bu il pambıqçılıqla bağlı məhsuldarlıq çox yüksək olub - rekord həddə: "Ancaq bunu bütün rayonlara aid etmək mümkün deyil. Ona görə indi gətirəcəyim rəqəmlər hər bir rayon rəhbərliyi üçün siqnal olmalıdır. Çünki bu gün bu müşavirədə Prezident Administrasiyasının, mərkəzi icra orqanlarının nümayəndələri, iyirmi rayonun icra başçıları və şirkətlərin nümayəndələri iştirak edirlər. Beləliklə, bu il yeddi rayonda məhsuldarlıq 30 sentnerdən yuxarı olub. Bunlar ardıcıllıqla aşağıdakı rayonlardır: Tərtər - 34,8 sentner, Bərdə - 33,7 sentner, Salyan - 33,2 sentner, Neftçala - 31,6 sentner, Ağcabədi - 30,7 sentner, Saatlı - 30,4 sentner və Beyləqan - 30,3 sentner. Bu onu göstərir ki, həm fermerlər, həm şirkətlər, həm də rayon rəhbərliyi bu işlərə çox məsuliyyətlə yanaşıblar və belə gözəl nəticələr əldə edilib. Üç rayonda məhsuldarlıq 30 sentnerə yaxındır - Biləsuvar rayonu - 29,5 sentner, Sabirabad rayonu - 29,2 sentner və Ağdam rayonu- 28,2 sentner. Yeddi rayonda məhsuldarlıq 20 sentnerdən çoxdur və bu rayonlar nəticə çıxarmalıdır. Üç rayonda isə məhsuldarlıq 20 sentnerdən azdır. Bax, bu rayonlarda çox ciddi təhlil aparılmalıdır, nə üçün, bunun səbəbi nədir? Bunun səbəbi olmalıdır. Ucar - 19,3 sentner, Hacıqabul - 14,4 sentner, Ağsu - 9,9 sentner. Hacıqabul və Ağsu rayonlarının icra başçıları dəyişdirildi, yeni icra başçıları təyin edildi. Onlar bu işləri geniş təhlil etməlidirlər və sonra məlumat verməlidirlər ki, məhsuldarlıq nə üçün çox aşağı səviyyədədir".

Maraqlıdır, üç rayonlarda məhsuldarlıq aşağı səviyyədə olub. Bu, qeyd olunan rayonlarda pambıqçılığa göstərilən diqqətin zəif olması ilə bağlıdır, yoxsa başqa səbəblər var?

Bu kimi suallara cavab tapmaq məqsədilə kənd təsərrüfatı üzrə ekspert Nicat Nəsirliyə müraciət etdik. O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bəzi rayonlarda məhsuldarlığın aşağı düşməsinin müəyyən səbəbləri var. Burada həm torpaq amilini, həm də icra başçılarının rolunu da qeyd etmək lazımdır: "Nəzərə almaq lazımdır ki, pambıq texniki bitkidir. Texniki bitkilər hər zaman güclü olur. Onların becərilməsi, zərərvericilərə qarşı mübarizə aparılması, gübrənin verilməsi digər bitkilərdən daha fərqlidir. Bu amillər nəzərə alınmadan əkin aparılmışdı. Sonradan məlum oldu ki, həmin ərazilər örüş, hunus qatı zəif olan, eyni zamanda, texniki strukturu çətin olan torpaqlardır. Məlumat üçün bildirim ki, bir neçə il əvvəl 136 min hektarda əkin aparmışdılar. Sonradan isə məlum oldu ki, həmin torpaqların böyük əksəriyyəti örüş torpaq sahələridir. 36 min hektar torpaq sahəsi azaldı və yerdə qalan əkin sahəsi ilə yüksək həcmdə məhsuldarlıq əldə olundu".

## *"Xaricdən alınan toxumların elə xüsusiyyəti var ki, onlar gec yetişir"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, Ucar, Hacıqabul və Ağsuda məhsuldarlığın 20 sentnerdən aşağı olmasının səbəblərindən biri torpaq amilidir. Məlumat üçün bildirim ki, qeyd olunan 3 rayon Şirvan torpaqlarına aiddir: "Həmin rayonlarda pambığın hamısı heç də əkinə yararlı ərazidə əkilməyib. Bu rayonlarda pambıq əkini ilə bağlı yayınma baş verib. Ola bilsin ki, pambığın yol kənarında, meşə ərazilərində əkilməsi qeydə alınır. Bəzi ərazilərdə şəxsən müşahidə etmişəm ki, sürüşmə zolağında, təpəlikdə də pambıq əkilib. Təbii ki, bu ərazilərdə məhsuldarlıq aşağı səviyyədə olacaq".

N.Nəsirlinin sözlərinə görə, pambıqçılığın inkişafı ilə bağlı toxumçuluq sahəsinə xüsusi diqqət yetirmək lazımdır. Xaricdən alınan toxumların elə xüsusiyyəti var ki, onlar gec yetişir. Bunun üçün yerli toxun sortları inkişaf etdirilməlidir. Məhsuldarlığın aşağı səviyyədə olması həm də toxumçuluqla bağlıdır: "Bununla yanaşı, çiyidin keyfiyyəti də həmin səviyyədə deyil".

**Günel CƏLİLOVA**

**Azərbaycanda qeyri-neft sektorunun inkişafı ixrac qabiliyyəti yüksək olan məhsulların daha geniş istehsalına şərait yaradır. Bu mənada, regionlarda texniki bitkilərin yetişdirilməsinin daha da genişləndirilməsi pambıqçılığın da inkişafında yeni mərhələnin başlanğıcını qoyub.**

# Hektardan 50 sentner pambıq götürə bilən fermerlərimizin təcrübəsini necə yaymaq olar...



## *Elşad Məmmədov: "Hökumət tərəfindən kənd təsərrüfatının inkişafında pambıqçılıq prioritet istiqamətlərdən biri seçilib"*

Belə ki, ölkəmizdə pambıqçılığın inkişafına göstərilən diqqət və qayğı bu sahənin yenidən yüksəlişinə imkan verir.

Vurğulanmalıdır ki, pambıqçılığın inkişafı dünya bazarına çıxışımız, eləcə də kənd təsərrüfatının inkişafında mühüm rola malikdir. Eyni zamanda, pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir.

Onu da qeyd edək ki, pambıqçılığın daha yüksək səviyyədə inkişafı üçün dövlətimiz sahibkarlara hərtərəfli yardım göstərir. İstər subsidiyaların verilməsi, istər yeni texnikalarla təminat məsələsinin həll edilməsi, istərsə də yeni torpaqların əkinə cəlb edilməsi regionlarda pambıqçılığın inkişafında yeni səhifələr açır.

Son illər bölgələrdə pambıq yığımı sürətlə artır. Bu sahədə yüksək inkişaf qeydə alınıb.

Dekabrın 19-da Prezident İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirədə də bu məsələyə toxunuldu. Qeyd olundu ki, 2019-cu ildə 50 sentnerdən artıq məhsul götürən fermerlərin sayı 953 olub. O da bildirildi ki, 2018-ci ildə 30 sentnerdən çox məhsul götürən 3096 fermer vardısa, 2019-cu ildə bu rəqəm iki dəfədən çox artaraq 7110 fermer təşkil edib. 7110 fermer tərəfindən yığılmış pambıq ümumi istehsalın 39 faizini təşkil edir: "Bu məhsulun 29,5 min hektar sahədən yığıldığını nəzərə alsaq, hektardan orta məhsuldarlıq 39 sentnerdir. 2019-cu ildə 50 sentnerdən artıq məhsul götürən fermerlərin sayı 953 olub. 2018-ci illə müqayisədə hesabat ilində fermerlərin əldə etdikləri gəlirlərin ümumi həcmi 45 milyon manatdan çox artıb".

## *"Fermerlərin daha yüksək həcmdə məhsul götürməsi üçün onlara dəstək olmaq və lazımi şərait yaratmaq lazımdır"*

Sevindirici haldır ki, cari ildə 50 sentnerdən artıq məhsul götürən fermerlərin sayı artıb. Necə etmək olar ki, digər bölgələrdə də analoji hal yaşansın?

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Elşad Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son zamanlar ölkədə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər təqdirəlayiqdir: "Hökumət tərəfindən kənd təsərrüfatının inkişafında pambıqçılıq prioritet istiqamətlərdən biri seçilib. Bu istiqamətə yönləndirilmiş resursların həcmi keyfiyyət dəyişikliklərinə səbəb olub. Həm ixrac, həm yerli bazarın təyin olunması baxımından qeyd olunan sektorda artım müşahidə olunur. Artım yeni texnologiyaların tətbiqi ilə müşahidə ediləndə məhsuldarlığın daha yüksək templə inkişafına səbəb olur".

Həmsöhbətimiz onu da əlavə etdi ki, pambıqçılıq elə bir sektordur ki, bu sahəyə xüsusi diqqət ayrılmalıdır. Bəzi bölgələrdə pambıq yığımı sahəsində yüksək nəticə müşahidə olunub: "Bu il 953 fermer 50 sentnerdən artıq məhsul götürüb. Məhsuldarlığın artması iqtisadiyyatın inkişafına müsbət təsir edir. Elə etmək lazımdır ki, digər bölgələrdə də məhsuldarlıq yüksək səviyyədə olsun. Bunun üçün fermerlərə dəstək olmaq və onlara lazımi şərait yaratmaq lazımdır".

**Günel CƏLİLOVA**

**Tamaşaçıların daim maraq göstərdiyi Bakı Dövlət Sirkində təhlükəsizliyin qorunması əsas məsələlərdən biri kimi rəsmi qurumların diqqət mərkəzində olmalıdır. Qeyd edək ki, artıq bir neçə ildir Bakı Dövlət Sirkinin hazırda yerləşdiyi binadan köçürülməsi, yeni bina ilə təmin olunması aktualdır.**

*"Kiçik texniki problemlər mövcud olsa da, bu, Bakı Dövlət Sirkinin fəaliyyətinə mane olacaq səviyyədə deyil"*

# Bakı Dövlət Sirkinin başında yenə "qara buludlar"...

***Mahir Hümbətov:** "...bina uzun illərdir əsaslı təmir olunmadan fəaliyyət göstərib"*




1967-ci ildə istismara verilən sirkin binası indiyə qədər əsaslı təmir edilməyib. Bildiyimiz kimi, Fövqəladə Hallar Nazirliyi tərəfindən Bakı Dövlət Sirki ilə bağlı müəyyən haqlı iradlar bildirilib. İradlar əsasən sirk binasında təhlükəsizlik problemləri ilə bağlı olub.

Bakı Dövlət Sirki mütəmadi olaraq rəngarəng proqramlarla tamaşaçılar qarşısına çıxır və zəngin repertuarla onları sevindirir. Fövqəladə Hallar Nazirliyinin məlum iradı sirkin təhlükəsizliyi ilə bağlı ictimaiyyətdə müəyyən narahatlıqlar yaradıb. Hətta müəyyən fikirlərə görə, Bakı Dövlət Sirki bağlanacaq.

Yeri gəlmişkən, bu günlərdə Mədəniyyət naziri Əbülfəs Qarayev də mətbuata bildirib ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən Bakı Dövlət Sirki ilə bağlı müəyyən haqlı iradlar irəli sürülüb və bu iradların aradan qaldırılması üçün işlər görülür. Nazir, həmçinin, deyib ki, o, Bakı Dövlət Sirkinin bağlanmasını istəmir: "Çünki şəhərdə mütləq belə bir müəssisə olmalıdır. Sirk 40 ilə yaxındır ki, əsaslı təmir olunmadan fəaliyyət göstərir. Hesab edirəm ki, müvəqqəti olsa da, təhlükəsizliklə bağlı olan ölçüləri götürməliyik. Artıq bunların yarısını etmişik. Ümidvaram ki, bu mövsümdə sirk öz işini davam etdirə bilər. Amma bu məsələyə gələcəkdə mütləq baxılmalıdır".

Bakı Dövlət Sirkinin mətbuat katibi Mahir Hümbətov da "Bakı-Xəbər"ə bildirdi ki, nazirlik tərəfindən sirkdə bir sıra təhlükəsizlik tədbirləri görülüb və sirkin binasında müəyyən təmir işləri həyata keçirilib. Sirkdə təhlükəsizliklə bağlı hazırda narahatlığın olmadığını deyən M.Hümbətovun sözlərinə görə, Fövqəladə Hallar Nazirliyinin təhlükəsizliklə bağlı irəli sürdüyü tələblərin yerinə yetirilməsi istiqamətində də işlər görülüb: "Cənab nazirin qeyd etdiyi kimi, sirkdə təhlükəsizliklə bağlı xeyli iş görülüb. Bilirsiniz ki, binada texniki baxımdan müəyyən problemlər var və bina uzun illərdir əsaslı təmir olunmadan fəaliyyət göstərib. Burada kiçik texniki problemlər mövcud olsa da, bu, Bakı Dövlət Sirkinin fəaliyyətinə mane olacaq səviyyədə deyil. Biz truppaları dəvət edirik və normal şəkildə proqramlarımızı davam etdiririk. Təbii ki, sirkin vəziyyəti müasir tələblər səviyyəsində deyil. Söhbət bundan gedir. Burada müəyyən təmir işləri aparılıb, yanğından mühafizə sistemi yenidən qurulub. Yəni sirkdə FHN-in təhlükəsizliklə bağlı təlimatlarının böyük əksəriyyəti Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilib. Bakı Dövlət Sirkinin gələcək fəaliyyəti artıq dövlətin nəzarətinə götürülüb".

Sirkin köçürülməsinə gəlincə, M.Hümbətov bildirdi ki, bu barədə hələ dəqiq fikir bildirmək mümkün deyil.

O vurğuladı ki, sirkin öz binasından köçürülməsi üçün ona yeni bina tikilməlidir. "Bir neçə ay əvvəl cənab nazir bildirmişdi ki, Bakı Dövlət Sirkinin yeni binaya ehtiyacı var, onun üçün müasir standartlara cavab verən yeni bina tikilməlidir. Sirkin köçürülməsi yalnız ona yeni bina tikildikdən sonra reallaşa bilər. Bu məsələ dövlətin nəzarətindədir" - deyə M.Hümbətov bildirdi.

***İradə SARIYEVA***

**Bakı şəhəri, Xətai rayonu, 95 nömrəli tam orta məktəbdə Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin xatirəsinə həsr olunmuş "Əlif Hacıyev - Qarabağın cəngavəri" adlı tədbir keçirilib.**

# Xətaidəki 95 saylı məktəbdə Milli Qəhrəman Əlif Hacıyevin xatirəsinə tədbir keçirildi...



Tədbirdə Xətai rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov, ATU-nun kafedra müdiri, tarix elmləri doktoru, professor Şikar Qasımov, tarix üzrə fəlsəfə doktoru, əməkdar jurnalist, polkovnik Hikmət Xudiyev, YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov, Xocalı rayon İcra Hakimiyyətində İctimai-siyasi və humanitar məsələlər şöbəsində baş məsləhətçi, Bakı şəhəri üzrə nümayəndə Xəlil Vəliyev, Əlif Hacıyevin döyüş dostu və silahdaşı Nazim Hüseynov, Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev, pedaqoji elmlər doktoru, professor Akif Abbasov, 3c sinif rəhbəri Ofelya Babayeva çıxış edərək Əlif Hacıyevin həyatından və torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi şücaətdən danışıblar, qeyd olunub ki, Əlif Hacıyev qısa ömür yaşasa da, canını vətən yolunda fəda etməsi ilə özündən sonra böyük şəhidlik məktəbi qoydu. İndi hər bir azərbaycanlı onun mübarizə dolu həyatı ilə fəxr edir.

Xətai rayonu 95 nömrəli tam orta məktəbin direktoru Elçin Abdullayev çıxışında ümummilli lider Heydər Əliyevin "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətənə, torpağa, millətə sədaqət, vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir" müdrik kəlamını xatırlayaraq qeyd edib ki, rəhbərlik etdiyi məktəbdə vətənpərvərlik mövzusunda mütəmadi olaraq keçirilən tədbirlərdə məqsəd respublikamızın ərazi bütövlüyü uğrunda canından keçən və şəhidlik zirvəsinə ucalan mərd oğul və qızlarımızın vətənpərvərliyini, onların nəsillərə örnək ola biləcək həyat yolunu təbliğ etməkdir.

Məktəb direktoru bildirib ki, Əlif Hacıyev kimi vətənimizin qeyrətli övladlarının Qarabağ müharibəsində göstərdiyi şücaətlərin təbliğ olunması erməni işğalçıları tərəfindən zəbt olunmuş ərazilərimizin Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə geri qaytarılacağı və şəhidlərimizin qisasının alınacağı günün uzaqda olmadığına bir daha əminlik yaradır.

3c sinif şagirdlərinin vətənpərvərlik mövzusunda nümayiş etdirdiyi ədəbi-bədii kompozisiya, jurnalist İlham Cəmiloğlunun ssenari müəllifi olduğu "Əlif Hacıyev - Qarabağın cəngavəri" filmi, qəhrəmanın ömür yolunu əks etdirən foto-stend, muğam ustalarının ifaları anım tədbirinə xüsusi rəng qatıb. Müharibə şahidlərini dinləmək, canlı Milli Qəhrəmanla ünsiyyətdə olmaq şagirdlərdə məmnunluq hissi yaradaraq onlarda vətən sevgisini, vətənpərvərlik hisslərini artırıb.

Tədbirdə Əlif Hacıyevin bacısı Şükufə Hacıyeva çıxış edərək qeyd edib ki, adi bir təqvim günündə qardaşı Əlif Hacıyevin bu cür ehtiramla anılması dövlətin, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətin, şəhidlərimizə, Milli Qəhrəmanlarımıza, şəhid ailələrinə sonsuz ehtiramın nəticəsidir.

***Hikmət CƏMİLZADƏ***

# Azərbaycan kinolarının lentdən rəqəmsallaşmaya keçidi nə yerdədir...

**Bu gün bütün dünyada filmlərin rəqəmsallaşması prosesi həyata keçirilir. Müasir dünyanın tələblərindən biri olan rəqəmsallaşma bütün sahələrə sirayət edib, o cümlədən də kino sahəsinə. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın müvafiq bəndlərindən birində də milli və digər filmlərin rəqəmsallaşdırılması qeyd olunub.**

Onu da vurğulayaq ki, Azərbaycanda həm Sovet dövründə çəkilən, həm də yeni istehsal edilən filmlərin rəqəmsallaşdırılması ilə bağlı müəyyən işlər görüldüyü bildirilir. Məlumat üçün bildirək ki, ölkəmizdə film və videoların rəqəmsallaşdırılması, eyni zamanda, bərpası ilə bağlı studiyalar mövcuddur.

Bu günlərdə 1973-cü ildə "Azərbaycanfilm" kinostudiyasında rejissor Həsən Seyidbəylinin ekranlaşdırdığı "Nəsimi" kinosu bərpa edilib. Ekran əsəri Mədəniyyət Nazirliyinin dəstəyilə "Balans" milli rəqəmsal studiyasında yenilənib. "Nəsimi" ilə yanaşı, digər Azərbaycan filmlərinin də rəqəmsallaşdırıldığı qeyd edilir.

Bir çox mütəxəssis hesab edir ki, filmlərin lentdən rəqəmsallığa keçirilməsi həm günün tələbidir, həm də o filmlərin bir yerdən digər yerə daşınması işini asanlaşdırır.

Azərbaycan filmlərinin rəqəmsallaşdırılması sahəsində nə kimi işlər görülüb və görülməsi planlaşdırılır?

**Cəmil Quliyev:** *”Filmlərimizin kinolentdə bərpa olunması ilə rəqəmsal daşıyıcılara köçürülməsi prosesi paralel aparılmalıdır”*




*”Həm Dövlət Film Fondu, həm də ”Azərbaycanfilm” kinostudiyası tərəfindən bu proseslər mütəmadi olaraq davam etdirilir”*

"Azərbaycanfilm" kinostudiyasının direktoru, əməkdar incəsənət xadimi, professor Cəmil Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu prosesə çoxdan başlanıb və xeyli sayda film artıq rəqəmsallaşdırılıb: "Məsələ burasındadır ki, Azərbaycan filmlərinin rəqəmsallaşması prosesinə çoxdan başlanıb. Həm Dövlət Film Fondu, həm də "Azərbaycanfilm" kinostudiyası tərəfindən bu proseslər mütəmadi olaraq davam etdirilir və əksər film artıq rəqəmsal daşıyıcılara keçirilib. Bu istiqamətdə işlər aparılır, filmlər yenilənir. Eyni zamanda, yeni ildə bir çox Azərbaycan filminin kinoplyonkada da bərpa olunması nəzərdə tutulur. Yəni filmlərin təkcə rəqəmsal deyil, kinolentdə də bərpa olunması aktualdır. Bu proseslərə vəsait ayrılmalıdır. Çünki artıq Azərbaycan kinosuna vəsait ayrılır və o vəsaitin daxilində Azərbaycan filmlərinin kinolentində də bərpa olunması və toxunulmaz fond kimi saxlanması nəzərdə tutulub. Bu gün Dövlət Film Fondunda ayrıca toxunulmaz fond var və ora bir çox film daxildir, həmin filmlər kinolentdə saxlanır. Filmlərimizin kinolentdə bərpa olunması prosesi ilə rəqəmsal daşıyıcılara köçürülməsi prosesi paralel aparılmalıdır. Ümumiyyətlə, dünya kinoarxiv işində bərpa prosesi həmişə iki istiqamətdə (kinolentində və rəqəmsal) aparılır. Çünki filmlərin rəqəmsal bərpası müasirdir, yaxşı haldır. Eyni zamanda da çevikdir, amma filmlərin təhlükəsizliyini həyata keçirmək üçün mütləq filmlər kinolentdə saxlanmalıdır. Rəqəmsal belədir ki, bir serverdə minlərlə film saxlamaq olar, həmin filmləri daşımaq asan olur. Amma filmləri kinolentdə saxlamaq üçün böyük yer tələb olunur, amma buna baxmayaraq, bütün kinoarxiv təşkilatlarında bütün filmlər, materiallar lentdə də saxlanır. Bu gün bununla bağlı dünya kinoarxiv təşkilatlarında həmişə konfranslar, simpoziumlar, forumlar keçirilir, bizim təmsilçilərimiz də o tədbirlərdə iştirak edirlər. Sonuncu dəfə belə bir tədbir İsveçrədə keçirildi. Həmin tədbirlərdə çıxış edən mütəxəssislər də belə qənaətə gəlirlər ki, filmlər həm rəqəmsal, həm də plyonkada saxlanmalıdır. Bu birbirini tamamlayır, eyni zamanda, filmin məhv olmasını sıfıra endirir".

C.Quliyev qeyd etdi ki, Azərbaycanda bu sahədə texnoloji avadanlıqlar var, amma filmlərimizin kinolentdə bərpa olunması üçün tələb olunan avadanlıq Azərbaycanda yoxdur: "Ona görə də filmlərimiz kinolentdə (plyonka) Azərbaycandan kənarda bərpa olunur. Bizdə əsasən rəqəmsallaşma istiqamətində işlər gedir. Çünki filmlərin kinolentdə bərpası üçün böyük laboratoriyalar lazımdır. Bu laboratoriya da böyük vəsait hesabına qurula bilər. Yəni bu proses çox böyük vəsait tələb edir. Bizim laboratoriyamız var, amma kinolentin emal məsələsi bu gün az ölkədə var. Biz filmləri kinolentə bərpa edə bilirik, amma onun kinolentə çap olunması, nüsxələnməsi üçün böyük laboratoriya tələb olunur, həmçinin də vəsait. Filmləri qoruyub saxlamaq üçün kifayət qədər avadanlığa malikik. Biz onu edirik.

**Amma filmlərin tam şəkildə kinolentdə nüsxələnməsi böyük laboratoriya tələb edir. Bundan əsasən Amerika Birləşmiş Ştatlarında, Rusiyada istifadə edilir. Azərbaycan filmləri əsasən Rusiyada bərpa edilir. Rusiya kinoarxiv təşkilatları dünyada ən böyük belə təsisatdır. Onların saysız-hesabsız filmi var. Ona görə də onların belə böyük laboratoriya yaratmasına zərurət yaranıb. Onlar burada öz filmlərini nüsxələyirlər. Bizə də lazım olanda onlara müraciət edirik".**

***İradə SARIYEVA***

№ 228 (4126) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

21 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Beynində 700 qurd tapıldı



**Yarımbişmiş donuz əti yedikdən sonra beynində 700 qurd aşkar edilib. "Milli.Az" xəbər verir ki, Çinin şərqində, Şərqi Çin dənizi sahilində yerləşən Çjetszyan əyalətində yaşayan 43 yaşlı Çju Çjun-Fa xəstəxanaya huşsuz vəziyyətdə çatdırılıb.**

Ona uzun müddət dəqiq diaqnoz qoymaq mümkün olmayıb. MRT müayinəsi zamanı xəstənin beynində 700-dən çox qurd aşkarlanıb. Onun ağciyərlərində və sinə boşluğunda da qurd tapılıb. Bu xəstəliyə "neyrokistiserkoz" deyilir. Çox vaxt sürfələr mərkəzi sinir sistemində, əzələlərdə, dəri və gözlərdə toplanır. Xəstəlik yaxşı bişirilməmiş donuz ətindən qaynaqlanır. Çju Çjun-Fa da ötən ay donuz əti yediyini etiraf edib. Qeyd edək ki, "neyrokistiserkoz" yetkinlik yaşında olanlarda epilepsiya xəstəliyinin aparıcı səbəbidir. Odur ki, həkimlər yemək bişirməklə bağlı qaydalara əməl etməyi, əlləri təmiz yumağı, təmiz su içməyi və çiy ət kəsilən bıçağı yumadan təkrar istifadə etməməyi tövsiyə edirlər. Bundan əlavə, ayaqyolundan çıxdıqda əllərinizi yaxşıca yumasanız, qurdlar bağırsaqlara yığılaraq müxtəlif orqanlara nüfuz edə bilər.



## Türkiyədə naməlum heyvan qalıqları aşkarlanıb

**Türkiyənin Trabzon şəhərindəki qayalıq ərazidə naməlum heyvan qalıqları aşkarlanıb.**

"AZƏRTAC" xəbər verir ki, skeletin 1.5 metr uzunluğu olan iki ayaqlı heyvana məxsus olduğu bildirilir. Türkiyənin Təbiəti Qoruma və Milli Parklar İdarəsinin əməkdaşları tərəfindən qalıqların araşdırılması işlərinə başlanıb.

## Timsah şəhərdə gəzintiyə çıxdı



**Kanadanın Monreal şəhərində qəribə hadisə baş verib. "Milli.Az" xəbər verir ki, kafedə qəhvə içən şəhər sakini küçədən keçən bir timsahı görəndə şok keçirib.**

Təxminən iki metr uzunluğunda olan yırtıcı küçə ilə hərəkət edirmiş. Şəhər sakinləri bu nadir hadisəni videoya çəkmək üçün küçəyə çıxıblar. Şahidlərin sözlərinə görə, hadisədən bir neçə dəqiqə sonra timsahın sahibi gələrək, onu minik maşınına mindirib. Çağırışa gələn polislər yırtıcının sahibinin lazım olan bütün sənədlərinin olduğunu qeyd edib.



## İlin ən pis həyat yoldaşı seçildi

**2019-cu il məşhurların sevgi münasibətləri gözdən keçirilərək mükafatlandırılıb. "Ölkə.az" bildirir ki, 27 yaşlı amerikalı müğənni Mayli Sayrus mükafatlandırılıb.**

O, 10 il ərzində gah ayrılıb, gah barışdığı aktyor sevgilisi Liam Hemstvorthla 2018-ci ildə yenidən evlənib, lakin 7 ay sonra boşanıblar.

Sayrus boşanma açıqlamasından bir gün sonra yeni sevgilisi ilə kameralara tuş gəlib. Cütlük boşanma qərarı almasına baxmayaraq, Sayrusun ayrılmadan yeni eşq yaşaması dedi-qodulara səbəb olub.

Buna görə də müğənni "İlin ən pis həyat yoldaşı" seçilib. Belə ki, "İlin ən çox sevgi etirafı edən cütlüyü" isə oktyabr ayında təmtəraqlı toy edərək evlənən Castin Biber və Hailey Baldvin seçilib.

## 5 yaşlı qız "Dünyanın ən varlı bloqqeri" oldu

**Krasnodar şəhərində yaşayan 5 yaşlı qız dünyanın ən çox qazanan bloqqerləri siyahısına daxil olub. "Axşam.az" bildirir ki, "Forbes"in hazırladığı siyahıda üçüncü yeri tutan Nastya Radzinskaya ən çox qonorar alan "YouTube" bloqqeridir.**

Serebral iflic xəstəsi olan Nastya 2019-cu ildə 18 milyon dollar qazanıb. O, ailəsi ilə birlikdə ötən il Floridaya köçüb və hazırda orada yaşayır. Nastyanın "Youtube" kanalında 107 milyon istifadəçi var. Siyahının birincisi 8 yaşlı Rayan Qaci adlı qız olub. O, il ərzində 26 milyon dollar qazanıb.





**Qoç** - Çoxlu mübahisələr və isti diskussiyalar olacaq. Amma onlar ciddi bir konfliktlə nəticələnməyəcək. Bir fikrə gəlsəniz, hər kəs bundan razı qalar. Məhz buna görə bəzi suallar hələ də cavabsız olaraq qalacaq.



**Buğa** - Həyati potensialınız böyükdür. Yaxşısı budur ki, bu gün nəyəsə çox böyük əmək sərf etməyəsiz. Ancaq xoş insanların əhatəsində keçirəcəyiniz bir istirahət sizə həm fiziki, həm də ruhi nöqteyi-nəzərdən çox xeyrli olacaq.



**Əkizlər** - Sakit, işlərinizi bitirmək və iş danışıqları aparmaq üçün gözəl bir gündür. Heç hara tələsmək lazım deyil, düşdüyünüz vəziyyətlə bağlı bir xeyli fikirləşin. Planlarınızı özünüz qurun.



**Xərçəng** - Ailə və sevgi münasibətləri harmoniyalı olacaq. Sizin yaxın insanlarla yaxşı ünsiyyətiniz olacaq ki, bu da, əlbəttə, sizin əhvalınıza təsir edəcək. Çoxdan xoşunuza gələn insandan sizə xoş xəbər gələ bilər.



**Şir** - Çalışın, heç kimə inanmayın. Bu gün sizin intiusiyanız sizi aldada bilər. Əsasən, bu proses yeni tanışlıqlar zamanı meydana çıxa bilər. Bu bürcün bəzi nümayəndələri yaxınları ilə ünsiyyətə məhdudiyyətlər qoya bilərlər.



**Qız** - Bu gün qızlar son vaxtlar yaranmış suallara cavab tapacaqlar. Müəyyən olacaq ki, işdəki vəziyyətiniz heç də siz fikirləşdiyiniz kimi faciəli deyil. Həm də ola bilər ki, siz çox böyük bir iş təklifi alasınız.



**Tərəzi** - Sakit və ölçülü bir gündür. Sevindirici haldır ki, xoşagəlməz hadisələr yoxdur. Sizdə istirahətlə bağlı maraqlı ideyalar yaranır, ancaq yaxınlarınıza bu ideyanı təlqin edə bilmirsiz.



**Əqrəb** - Sənədlərin hazırlanması ilə məşğul ola bilərsiniz. Rəqəmlərlə olan iş hətta humanitar sektorun işçiləri üçün də uğurlu olacaq. Günün ikinci yarısında yüksək səviyyəli tədbirlərə gedə bilərsiz.



**Oxatan** - Bu gün Oxatanlar üçün uğursuz bir gün olacaq. Siz baş verən hadisələrdən hiddətlənirsiz, problemlərə çözüm yolu axtarırsınız, amma bu yolları tapa bilmirsiz.



**Oğlaq** - Yaxşı məsləhətləri eşitmək üçün əlverişli bir gündür. Sizinlə dostluq əlaqələri olan hər kəsə diqqətlə qulaq asıb, onlardan nəsə öyrənməyiniz sizin xeyrinizə olacaq. Qarşınıza çıxan insanlar çox maraqlı həyat tərzlərilə seçilirlər.



**Dolça** - Gün çox tez keçir. Dolçalara bu gün nə çoxlu dərd, nə də sevinc bəxş edir. Siz maraqlı işlərə başlayır və onların öhdəsindən gəlirsiniz. Entuziazm tələb etməyən işləri isə sakitcə özünüzdən uzaqlaşdırırsınız.



**Balıqlar** - Çox çətin bir gündür. Qarşınızda duran sualların çoxusuna cavab tapa bilməyəcəksiniz. Hərdən özünüzə inamınızı itirirsiniz. İşlərin sizin xeyrinizə başa çatacağına heç bir ümidiniz yoxdur.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Bu ayda doğulanlar əsasən ürək xəstəliyindən ölürlər...



**İnsanın doğum tarixinin ölüm səbəbi ilə əlaqəli olduğu aşkarlanıb.**

"Milli.Az" xarici mətbuata istinadla xəbər verir ki, aparılan araşdırmalara əsasən insanın hansı fəsildə doğulması onun necə öləcəyindən xəbər verir. İddialara görə, yazda və yayda doğulan insanlar əsasən ürək xəstəliyindən vəfat edirlər. Payızda doğulan insanlarda isə bu xəstəliyə az rast gəlinir. ABŞ-lı araşdırmaçılar xəstəxanada qeydiyyatda olan 116,911 qadının doğum və ölüm tarixlərinin, səbəblərinin araşdırmasından sonra bu nəticəyə gəliblər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.